## Laçında fəhlə minaya düşüb

Pərvin Salahov ağır xəsarətlər alıb



**Aprelin 29-u saat 14 radələrində Laçın rayonunun işğaldan azad edilmiş Səfiyan kəndi ərazisində 1992-ci il təvəllüdlü Pərvin Salahovun piyada əleyhinə minaya düşməsi ilə bağlı rayon prokurorluğuna məlumat daxil olub.**

Laçın rayon prokurorluğundan Trend-ə verilən məlumata görə, ilkin araşdırmalarla həmin ərazidə təmir tikinti işləri aparılan zaman tikinti şirkətində fəhlə kimi çalışan Pərvin Salahovun minaya düşməsi nəticəsində ağır dərəcəli bədən xəsarətləri alması müəyyən edilmişdir. Hazırda faktla bağlı Laçın rayon prokurorluğunda araşdırma aparılır.

## Sərnişinlərə xoş xəbər

"BakuBus"ın avtobuslarında pulsuz WiFi olacaq



**"BakuBus" MMC-nin istismarında olan 5 və 7A nömrəli marşrut xətləri üzrə hərəkət edən avtobuslar pulsuz WiFi xidmətinə qoşulub.**

"Report" xəbər verir ki, cəmiyyət tərəfindən bu istiqamətdə aparılan testlər uğurla başa çatıb və sərnişinlər aprelin 30-dan bu xidmətdən yararlana biləcəklər.

"BakuBus" MMC-nin istismarında olan digər marşrut xətləri üzrə hərəkət edən avtobusların da pulsuz WiFi xidmətinə qoşulması nəzərdə tutulur.


№ 76 (5598), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 30 aprel 2022-ci il (şənbə)




# 28 May ümidi...

Əfvlə bağlı 200-dən çox müraciətə baxılıb

**Dünən Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının növbəti iclası keçirilib.**

Məlumata görə, iclasda 100-dən çox müraciətə baxılıb. Növbəti iclasın gələn həftə keçirilməsi planlaşdırılır.

Bununla da Əfv Məsələləri Komissiyasında baxılan müraciətlərin sayı 200-ü keçib.

*Xatırladaq ki, Azərbaycanda sonuncu əfv sərəncamı ötən il martın 18-də imzalanıb. Sərəncama əsasən, azadlıqdan məhrum edilmiş 475 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib, 98 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb.*

# "Ermənistan Azərbaycanın təkliflərini qəbul edib"

Prezident İlham Əliyev: "Əgər sülh razılaşması imzalansa və bu baza prinsipləri tanınsa, onda Qafqazda sülh uzunmüddətli və dayanıqlı olacaq"




**"Aparıcı beynəlxalq təşkilatların yeni reallıqları qəbul etməsi çox vacibdir". Bu barədə Prezident İlham Əliyev aprelin 29-da ADA Universitetində "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransda bildirib. Ölkə başçısı vurğulayıb ki, Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək planları barədə məlumat verilib:**

"Planlar həqiqətən də böyükmiqyaslıdır və büdcəmizdən maliyyə vəsaiti ayırarıq, öz imkanlarımız hesabına və beynəlxalq şirkətlərin dəstəyi ilə həyata keçirilir. Bununla yanaşı, keçən il aprel ayında görüşdüyümüz və müzakirə etdiyimiz vaxtdan bəri qarşımızda duran mühüm vəzifələrdən biri yeni reallıqları gücləndirmək və regiona baxışımızı, öz iddiamızı təqdim etmək idi. Həm də beynəlxalq ictimaiyyətin, aparıcı beynəlxalq təşkilatların yerlərdə yeni reallıqları qəbul etməsi çox vacibdir".

(səh.2)



## Mehriban Əliyeva yanğının söndürülməsində iştirak edənlərə minnətdarlıq etdi

**Birinci vitse-prezident Mehriban Əliyeva Sumqayıtda "Azərsun Sənaye Parkı"ndakı yanğının söndürülməsində iştirak edən dövlət qurumlarının əməkdaşlarına minnətdarlıq edib.**

*Birinci xanımın instaqramdakı paylaşımında deyilir:*

"Sumqayıt şəhərinin Hacı Zeynalabdin qəsəbəsində yerləşən "Azərsun Sənaye Parkı"nın ərazisində baş vermiş yanğının söndürülməsi və nəticələrinin aradan qaldırılmasında iştirak etmiş dövlət qurumları əməkdaşlarının peşəkarlığı ilə fəxr edir və onlara dərin minnətdarlığımı bildirirəm".

## Mayın 2-də bir araya gələcəklər

Hikmət Hacıyev Brüsseldə Armen Qriqoryanla görüşəcək



**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanla görüşəcək.**

"Azadlıq" radiosu xəbər verir ki, görüş mayın 2-də Brüsseldə keçiriləcək. Tərəflər Ermənistanla Azərbaycan arasında münasibətlər, eləcə də ölkə liderlərinin Brüsseldə görüşünün mümkünlüyünü müzakirə edəcəklər.

*Xatırladaq ki, Azərbaycan və Ermənistanın yüksək vəzifəli rəsmilərinin əvvəlki görüşü martın 30-da Brüsseldə keçirilib. Tədbirdə Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev, Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan və Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar iştirak ediblər.*

# Sülh qaçılmazdır

Qarabağda yaşayan ermənilərin təhlükəsizliyi təmin olunacaq



**Prezident İlham Əliyev "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransda çıxışı zamanı bir çox məqama toxunub.**

Dövlət başçısının diqqət yönəltdiyi mühüm mövzulardan biri də Qarabağda yaşayan ermənilərlə bağlı olub. Ölkə rəhbəri vurğulayıb ki, Azərbaycan dövləti erməniləri öz vətəndaşları kimi qəbul edir.

(səh.3)



## Düşənbədə toplaşacaqlar

Azərbaycan, Rusiya və Ermənistan XİN başçıları üçtərəfli görüş keçirə bilər

**Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovun mayın 13-də rusiyalı həmkarı Sergey Lavrov və ermənistanlı həmkarı Ararat Mirzoyanla üçtərəfli görüşü baş tuta bilər.**

"Report" TASS-a istinadən xəbər verir ki, görüşün MDB XİN başçılarının Tackistanın paytaxtı Düşənbədə keçiriləcək iclası çərçivəsində baş tutması ehtimal olunur.

*Qeyd edək ki, bu gün S.Lavrovla A.Mirzoyan arasında telefon danışığı olub. Tərəflər sərhədlərin demarkasiyası və delimitasiyası üzrə üçtərəfli komissiyanın fəaliyyətini müzakirə ediblər.*

## Şəhid ailəsinə pensiya ödənilməsi qaydası dəyişir



**Ailə başçısına şəhid statusu verildiyi tarixlə müraciət olunan tarix arasındakı müddət üzrə də pensiya məbləği ödəniləcək.**

Bu, "Əmək pensiyası haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.

Bu gün Milli Məclisin Əmək və sosial siyasət komitəsinin videokonfrans formatında keçirilən iclasında qanun layihəsi ikinci oxunuşda müzakirə olunub və parlamentin plenar iclasına tövsiyə edilib.

## Ölən olmayıb

Azərbaycanda daha 13 nəfər koronavirusa yoluxub




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 13 yeni yoluxma faktı qeydə alınıb, 16 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslər arasında ölən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 792 558 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 782 744 nəfər müalicə olunaraq sağalıb, 9 709 nəfər vəfat edib, aktiv xəstə sayı 105 nəfərdir.

*Ölkədə son sutka ərzində 2 731, hazırkı dövrədək isə 6 811 382 test aparılıb.*



## Putin bu il 9 May paradına heç kəsi dəvət etməyib

Heç Aleksandr Lukaşenko da Moskvaya getməyəcək

(səh.2)



## Sənədsiz uşaqlar insan alveri qurbanlarının övladları deyil

Dünyaya gəlmiş körpənin qeydiyyata salınmamasının müxtəlif səbəbləri olur

(səh.5)

# "Ermənistan Azərbaycanın təkliflərini qəbul edib"

## Prezident İlham Əliyev: "Əgər sülh razılaşması imzalansa və bu baza prinsipləri tanınsa, onda Qafqazda sülh uzunmüddətli və dayanıqlı olacaq"





**"Aparıcı beynəlxalq təşkilatların yeni reallıqları qəbul etməsi çox vacibdir". Bu barədə Prezident İlham Əliyev aprelin 29-da ADA Universitetində "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransda bildirib. Ölkə başçısı vurğulayıb ki, Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək planları barədə məlumat verilib:**

"Planlar həqiqətən də böyükmiqyaslıdır və büdcəmizdən maliyyə vəsaiti ayıraraq, öz imkanlarımız hesabına və beynəlxalq şirkətlərin dəstəyi ilə həyata keçirilir. Bununla yanaşı, keçən il aprel ayında görüşdüyümüz və müzakirə etdiyimiz vaxtdan bəri qarşımızda duran mühüm vəzifələrdən biri yeni reallıqları gücləndirmək və regiona baxışımızı, öz iddiamızı təqdim etmək və aparıcı beynəlxalq təşkilatlarla işləmək idi. Həm də beynəlxalq ictimaiyyətin, aparıcı beynəlxalq təşkilatların yerlərdə yeni reallıqları qəbul etməsi çox vacibdir".

### "Ermənistan əhalisi sülhün zəruriliyini anlayır"

**Dövlət başçısı qeyd edib ki, Azərbaycan aktiv şəkildə Cənubi Qafqazda yeni eranı müdafiə edir:** "Nəhayət biz bu yaxınlarda Ermənistandan müsbət cavab aldıq. Hökumət Azərbaycanın irəli sürdüyü Ermənistanla sülh razılaşmasının təməli olacaq 5 baza prinsipini qəbul etdi. Eyni zamanda, Azərbaycanın təklifi əsasında Ermənistan nəhayət sərhədlərimizin delimitasiya prosesinə başlamaq üçün Azərbaycanla birgə İşçi qrupun yaradılmasına razılaşdı. Düşünürəm ki, bunlar vacib əlamətlərdir. İkinci Qarabağ müharibəsindən ötən il yarım ərzində Ermənistan liderliyi və mən ümid edirəm ki, əhalisi sülhün zəruriliyini anlayır. Əgər sülh razılaşması imzalansa və bu baza prinsipləri tanınsa, onda Qafqazda sülh uzunmüddətli və dayanıqlı olacaq. Biz bunu istəyirik. Mən düşünürəm ki, bizim nümayiş etdirdiyimiz və bəyan etdiyimiz Qafqazda sülhə töhfə vermək niyyətimizin aydın nümunəsidir".

### "Şuşa Bəyannaməsini imzalamaqla Türkiyə ilə bir olduğumuzu bəyan etdik"

**Prezident bildirib ki, ötən ilin iyununda Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanla imzalanan Şuşa Bəyannaməsi qardaşlığımızın və əməkdaşlığımızın bariz nümunəsidir:** "Bu gün biz bu əməkdaşlığı bütün formatlarda rəsmiləşdirdik.

Azərbaycanın Türkiyə ilə bütün sahələrdə, o cümlədən hərbi və müdafiə sənayesi sahəsində müttəfiq olduqlarını vurğulayan dövlətimizin başçısı qeyd edib: "Şuşa Bəyannaməsi ilə biz Türkiyə ilə həm sözdə, həm də əməldə bir olduğumuzu bütün dünyaya bəyan etdik".

### "Biz Qafqazda sülh gündəliyini müdafiə edirik"

**Azərbaycan rəhbəri vurğulayıb ki, biz Qarabağı yenidən inşa edirik, iqtisadiyyatımızı gücləndirmək üçün resurslarımızı səfərbər edirik:** "Çünki bu olmadan böyük miqdarda maliyyə resurslarının ayrılması asan olmayacaq. Eyni zamanda, biz Qafqazda sülh gündəliyini müdafiə edirik. Mən düşünürəm ki, bu yolda təşəbbüslər bizim əlimizdədir. Bu təşəbbüslər sülhə xidmət edir və etməlidir". Dövlət başçısı qeyd edib ki, Zəngilan hava limanı bu il, Laçın hava limanı isə yəqin ki, 2024-cü ildə istifadəyə veriləcək.

### "Bu cür konfransların azad edilmiş digər şəhərlərdə də keçirilməsi daha effektiv olar"

**Dövlət başçısı qeyd edib ki, əsas məsələ beynəlxalq ictimaiyyətin baş verənlərlə, həqiqətlə, bizim planlarımız və niyyətlərimizlə yaxından tanış olmasıdır:** "Düşünürəm ki, bu interaktiv görüşlər, konfranslar digər şəhər və rayonlarda, məsələn, Ağdamda, Zəngilanda və işğaldan azad olunmuş başqa şəhərlərdə də keçirilə bilər, bu, daha effektiv olar. Əminəm ki, bu ənənəvi toplantı formatı bundan sonra da davam edəcək. Ola bilsin ki, bu həm də müntəzəm olaraq keçiriləcək Şuşa Beynəlxalq forumları arasında qarşılıqlı əlaqənin bir növü ola bilər. Çünki beynəlxalq ictimaiyyətin baş verənləri, işğal illəri haqqında tam həqiqəti və sülh qurmaq planlarımızı və niyyətlərimizi bilməsi vacibdir".

### "Ermənistan Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarından imtina etməlidir"

**Prezident bəyan edib ki, əsas konsentrasiyamız Qarabağın yenidən necə inşa edilməsi, keçmiş məcburi köçkünlərin mümkün qədər necə tez bir zamanda qayıtmasına yönəlib:** "Eyni zamanda, bizim ictimaiyyətə bəyan edilmiş və beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənmiş sülh gündəliyimiz və təşəbbüslərimiz regional inkişafa, Cənubi Qafqazda regional inkişaf üçün yeni fürsətlərə hədəflənib. Sadəcə, Azərbaycan və Ermənistan arasında deyil - əlbəttə, bu, regional əməkdaşlığın ən vacib elementlərindən biridir - bütün Cənubi Qafqazın inkişafına yönəlib. Biz bu imkanı separatizmə, Ermənistanın aqressiyasına görə 30 il ərzində itirmişik və Cənubi Qafqaz inteqrasiya edə bilməyib. Bəli, burada ikitərəfli və beynəlxalq səviyyədə vacib olan Azərbaycan və Gürcüstan arasında çox yaxın əməkdaşlıq var. Amma eyni zamanda, Ermənistanda bu başa düşülməlidir ki, onlar bu regionda təcrid edilmiş ada kimi yaşamağa davam edə bilməzlər, onların bizimlə əlaqələri normallaşdırmağa ehtiyacı var, onlar Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarından imtina etməlidirlər və Cənubi Qafqazda üçtərəfli səviyyədə istənilən əlaqələrlə bağlı heç bir tərəddüd etməməlidirlər".

### "Minatəmizləmə sahəsində daha geniş beynəlxalq əməkdaşlığa ehtiyac var"

*Ölkə başçısı qeyd edib ki, ərazilərimizin minalarla çirkləndirilməsi böyük problemlərdən biridir:* "Müharibə başa çatdıqdan sonra 200-dən çox hərbi və mülki şəxs, əfsuslar olsun ki, mina hadisələri nəticəsində ya həlak olub, ya da ciddi xəsarətlər alıb. Minaların müharibə başa çatdıqdan sonra da ermənilər tərəfindən ərazilərimizdə yerləşdirildiyini vurğulayan Azərbaycan Prezidenti bildirib. Ötən il azərbaycanlı iki jurnalist Kəlbəcərdə yeni basdırılmış minanın partlaması nəticəsində həlak olub. Həmin ərazilərin mianalardan təmizlənməsinin çox çətin və uzunmüddətli proses olduğunu vurğulayan dövlətimizin başçısı bunun üçün Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin əməkdaşlarının sayının artırıldığını, ən müasir avadanlığın, o cümlədən dronların alındığını deyib. Türkiyənin bir qrup mütəxəssisinin minatəmizləmə əməliyyatlarında iştirak etdiyini bildirən Prezident İlham Əliyev bu sahədə daha geniş beynəlxalq əməkdaşlığa ehtiyac olduğunu diqqətə çatdırıb.

### "Ermənistan hökuməti tərəfindən sülhlə bağlı müxtəlif bəyanatlar irəli sürülməkdədir"

*Prezident deyib ki, Ermənistan hökuməti sülh gündəliyini elan edib:* "Bu, çox mühüm bir məsələdir. Eyni zamanda, biz konkret işlər, tədbirlər də görməliyik. Düşünürəm ki, hazırda biz bu tədbirləri görürük, Ermənistan hökuməti tərəfindən sülhlə bağlı müxtəlif bəyanatlar irəli sürülməkdədir". Dövlət başçısı bildirib ki, bu bəyanatlar yeni reallıqlara və heç şübhəsiz, beynəlxalq hüquq prinsiplərinə əsaslanır ki, biz hər zaman bu prinsipləri təbliğ etmişik: "Reallıqlar dəyişdikdən bəri bu reallıqlar artıq vasitəçilər tərəfindən qəbul edilməkdədir".

### "Azərbaycanın xarici siyasətinin müstəqil xarakteri bizim milli maraqlarımıza əsaslanır"

*Ölkə rəhbəri bildirib ki, Azərbaycanın xarici siyasətinin müstəqil xarakteri bizim milli maraqlarımıza və maksimum səviyyədə nailiyyətlərə əsaslanır:* "Biz regionumuzda təhlükəsizlik və əməkdaşlıq barəsində bu günümüzün və gələcəyimizin ayrılmaz bir hissəsi kimi düşünməliyik. Çünki təhlükəsizlik olmadan əməkdaşlıq, iqtisadi faydalar olmayacaq. Azərbaycanın öz resurslarına əsaslanan iqtisadi performansı da həmçinin sabitlikdən, təhlükəsizliyin bir hissəsi olan uzunmüddətli sabitlikdən qaynaqlanır".

### "Moskva Bəyannaməsi bizim strateji maraqlarımıza əsaslanır"

**Prezident vurğulayıb ki, Moskva Bəyannaməsinin imzalanması strateji maraqlarımıza əsaslanır, çünki Rusiya bizim qonşumuzdur:** "Rusiya İkinci Qarabağ müharibəsinə son qoyulmasında aktiv şəkildə iştirak edən ölkədir. Rusiyanın sülhməramlıları müvəqqəti Azərbaycan ərazilərində yerləşib. Üstəlik, Rusiya ilə illərdir çalışdığımız iqtisadi, enerji, nəqliyyat, mədəni, humanitar sahələr üzrə genişmiqyaslı məsələlər var. Əlbəttə, biz Rusiyadan hərbi vasitələr alırıq, əlbəttə, doğrudur biz onları ödənişsiz əldə edən Ermənistandan fərqli olaraq, bazar dəyərinə alırıq. Bunlar dırnaqarası kreditlər hesabına ödənilirdi, amma bu kreditlər heç vaxt qaytarılmayıb. Fərq budur. Amma eyni zamanda, düşünürəm ki, bu, regional oyunçulara bir növ mesajdır ki, burada sülh olmalıdır. Türkiyə və Rusiya - hər ikisi müharibədən sonra regiondakı yeni konfiqurasiyada iştirak etdilər. Bilirsiniz ki, vəziyyəti müşahidə etmək üçün Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi Ağdamda yerləşir. Düşünürəm ki, tarixdə ilk dəfədir ki, belə bir tənzimləmə mümkündür. Eyni zamanda, Türkiyə-Rusiya əlaqələri - biz indi görürük ki, Prezident Ərdoğan Ukraynada atəşkəs üçün vasitəçilik edir. Beləliklə, bütün bunlar regional təhlükəsizliyə və sabitliyə xidmət edir və eyni zamanda, bizim əməkdaşlığımızın müstəqil xarakterini nümayiş etdirir".

### "Azərbaycanla münasibətlərin normallaşdırılması Ermənistan üçün proqnozlaşdırılması mümkün olmayan imkanlar açacaq"

**Dövlət başçısı bəyan edib ki, Ermənistanın üçtərəfli görüşün keçirilməsi haqqında Azərbaycan tərəfinin təkliflərini rədd etməsi, onların belə siyasəti heç bir məntiqə sığmır:** "Bəlkə də onlara bir qədər vaxt lazımdır, onlar burada mümkün riskləri qiymətləndirməlidirlər, lakin mən hesab edirəm ki, bu, qaçılmazdır. Biz və bizim gürcü həmkarlarımız buna hazırdır. Məncə, bu, ilk addım ola bilər. Azərbaycan və Gürcüstanın enerji və nəqliyyat marşrutlarını nəzərə almaqla nə qədər inteqrasiya olunduğunu bilirsiniz. Mən hesab edirəm ki, Ermənistanı regional inkişafa qoşulmağa dəvət etmək imkanları da mövcuddur. Onlar bundan faydalanacaqlar. Onlar bizim enerji resurslarımıza çıxış əldə etməklə faydalana və müəyyən dərəcədə beynəlxalq nəqliyyat dəhlizlərinin bir hissəsinə çevrilə bilərlər. Bunlar, öz-özlüyündə müəyyən gəlir gətirə bilər. Azərbaycanla münasibətlərin normallaşdırılması Ermənistan üçün hətta indi proqnozlaşdırılması mümkün olmayan imkanlar açacaq".

### "Bəlkə 10 ildən də tez bütün anlaşılmazlıqlar həll edilmiş olacaq"

**Ölkə rəhbəri bildirib ki, yaxın on ildə biz daha güclü olacağıq:** "Ümid edirəm ki, o zaman, bəlkə 10 ildən də tez bütün anlaşılmazlıqlar, Ermənistanla olan problemlər həll edilmiş olacaq. Eyni zamanda, Cənubi Qafqaz regionu tam şəkildə inteqrasiya edilmiş, bölgənin üç ölkəsinin artıq sıx əməkdaşlığı mövcud olmuş olacaq. Bunun üçün fürsət və imkanlar var. Azərbaycan istər nəqliyyat, istər enerji sahəsində regional layihələrin reallaşdırılmasında, Azərbaycan-Türkiyə kontekstində üçtərəfli əməkdaşlıqda çox mühüm rol oynayır.

### "Bakı və İrəvanın nümayəndələri mayın əvvəllərində Brüsseldə görüşə bilər"

**Prezident bəyn edib ki, Azərbaycan və Ermənistanın nümayəndələri mayın əvvəllərində Brüsseldə görüşə bilərlər:** "Mayın əvvəllərində Brüsseldə Azərbaycan və Ermənistan nümayəndələrinin görüşünü təşkil etmək planı var". Avropa İttifaqını Azərbaycanın mühüm tərəfdaşı adlandıran Prezident İlham Əliyev deyib ki, bizim çox geniş əməkdaşlıq gündəliyimiz var: "Biz Avropa İttifaqını vicdanlı aktor hesab edir və onun səylərini alqışlayırıq. İndi Minsk qrupu mövcud deyil, ona görə düşünürük ki, Avropa İttifaqı normallaşma prosesində öz rolunu oynaya bilər".

### "Bu, Ermənistan hökuməti və siyasətçiləri üçün bir şansdır"

*Ölkə rəhbərinin sözlərinə görə, qabaqcıl dövlətlərdən olan, dünyanın çox az sayda aparıcı ordusundan birinə malik Türkiyəyə qarşı ərazi iddiası irəli sürmək tamamilə məntiqsizdir. Dövlət başçısı bildirib ki, biz Türkiyə-Ermənistan prosesini dəstəkləyirik:* "Hesab edirəm ki, bu, Ermənistan hökuməti və siyasətçiləri üçün gələcəklərini, özlərini regionda necə görmək istədiklərini düşünmək üçün bir şansdır. Lakin düşünürəm ki, onların aydın anlayışı yoxdur. Onlar ordunu yenidən qurmaq, daha da güclənmək, dövlət proqramı kimi elan etdikləri əhalinin sayını 5 milyona çatdırmaq, əraziləri geri almaq cəhdləri kimi bütün illüziyaları yerə qoymalıdırlar. Yoxsa bu, dövlətçiliyin sonu, rəsmi sonu olacaq. Biz isə müsbət tendensiyaları dəstəkləməyə hazırıq və bunu edirik. Bizim ümidlərimiz var, amma erməniləri sınamaq lazımdır, çünki onlarla heç vaxt sülh danışıqları aparmamışıq. Beləliklə, indi vaxtdır. Dediyim kimi, sülh sazişi üzrə danışıqlara hazırıq, Ermənistan hökumətindən tarix gözləyirik və başlayacağıq".

**İsmayıl**




# Prezident Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

**Prezident İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.**

**Təbrikdə deyilir:**

**"Hörmətli həmvətənlər!**

Müqəddəs Ramazan bayramı münasibətilə sizi və bütün dünya azərbaycanlılarını ürəkdən təbrik edir, hər birinizə ən xoş arzu və diləklərimi yetirirəm.

İlahi hikmətlər xəzinəsi Qurani-Kərimin nazil olduğu Ramazan ayı insanları xeyirxah əməllərə, birlik və bərabərliyə dəvət edən, onlara əxlaqi saflığın, nəfs üzərində qələbənin və ruhi-mənəvi kamilliyin sevincini yaşadan mübarək aylardandır.

Tarixən Azərbaycan cəmiyyətində vəhdətin, həmrəyliyin və nümunəvi tolerantlıq mühitinin bərqərar olmasında İslam dini əhəmiyyətli rol oynamışdır. Milli-mənəvi dəyərlərinə hər zaman dərin bağlılıq nümayiş etdirən xalqımız öz adət-ənənələrini, dini ayin və mərasimlərini bu gün də layiqincə qoruyub saxlayır, o cümlədən Ramazan bayramını hər il xüsusi təntənə ilə keçirir.

Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, haqq işi uğrunda mübarizədə qazandığımız şanlı Zəfərlə azad edilmiş dədə-baba yurdlarımızda həyat yenidən dirçəldilir, tarixi-mədəni irsimiz, ibadət yerlərimiz bərpa olunur, məscidlərimizdən azan sədaları yüksəlir.

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həyatını qurban vermiş qəhrəman şəhidlərimizin ölməz xatirəsini bu mübarək bayram günlərində bir daha ehtiramla yad edir, onlara Allahdan rəhmət, ailələrinə səbir, qazilərimizə cansağlığı diləyirəm.

Əziz bacı və qardaşlarım!

On bir ayın sultanı Ramazan ayını şükranlıq duyğuları və könül xoşluğu ilə yola salırıq. İnanıram ki, ölkəmizin əmin-amanlığı və tərəqqisi naminə etdiyiniz dualar sayəsində Uca Tanrı öz mərhəmətini və şəfqətini xalqımızdan əsirgəməyəcəkdir.

Bir daha hamınıza səmimi bayram təbriklərimi çatdırır, ailələrinizə səadət, süfrələrinizə xeyir-bərəkət arzulayıram. Allah orucunuzu qəbul etsin.

***Bayramınız mübarək olsun!"***

# Putin bu il 9 May paradına heç kəsi dəvət etməyib

## Heç Aleksandr Lukaşenko da Moskvaya getməyəcək



**Rusiya Prezidenti Vladimir Putin mayın 9-da Qələbə Günü münasibəti ilə Moskvada keçiriləcək hərbi parada heç bir dövlət liderini dəvət etməyib.**

Bunu Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov deyib.

O, Putinin addımını belə izah edib: "Çünki bu, yubiley tarixi deyil".

Peskovun sözlərinə görə, Belarus Prezidenti Aleksandr Lukaşenko da mayın 9-da Moskvaya səfər etməyi planlaşdırmır.

Qeyd edək ki, keçmiş müttəfiq respublikaların bəzilərində Qələbə Gününə həsr edilən parad keçirilməyəcək.

Qazaxıstan bu il Qələbə Günü paradını keçirməyi planlaşdırmır. Bu barədə aprelin 13-də respublikanın müdafiə nazirliyinin mətbuat xidməti bildirib.

Qeyd edək ki, Qazaxıstan 2020-2021-ci illərdə də parad keçirməyib, lakin bu, koronavirusla bağlı vəziyyətlə əlaqəli olub.

Eyni zamanda, mətbuat xidmətinin qeyd etdiyi kimi, ölkədə hərbi-vətənpərvərlik tədbirlərinin keçirilməsi nəzərdə tutulur. Ümumilikdə Müdafiə Nazirliyi respublikanın bütün bölgələrində 50-yə yaxın müxtəlif tədbir təşkil etməyi planlaşdırır.

# Rusiya və Ermənistan XİN başçıları telefonla danışıb

## Bakı ilə İrəvan arasında sülh müqaviləsi müzakirə olunub



**Rusiya xarici işlər naziri Sergey Lavrovla ermənistanlı həmkarı Ararat Mirzoyan arasında telefon danışığı olub.**

"Report" TASS-a istinadən xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyindən məlumat verilib.

Bildirilib ki, tərəflər Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanmasına dair fikir mübadiləsi aparıblar.

"Regional kontekstdə Ermənistan, Azərbaycan və Rusiya liderləri arasında 10 noyabr 2020-ci il, 11 yanvar və 26 noyabr 2021-ci il tarixli üçtərəfli sazişlərin icrası, o cümlədən Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası üzrə komissiyanın fəaliyyətə başlaması müzakirə olunub", -XİN-dən bildirilib.

# ABŞ Ukraynaya PUA və haubitsalar verəcək

**ABŞ Ukraynaya hərbi dəstək kampaniyası çərçivəsində haubitsalar və Pilotsuz Uçuş Aparatları (PUA) verəcək.**

APA RİA Novosti-yə istinadən xəbər verir ki, bu barədə Pentaqon açıqlama verib. Hərbi yardımın yaxın sutka ərzində 12 təyyarə ilə Ukraynaya çatdırılacağı vurğulanıb.

# Sülh qaçılmazdır

## Qarabağda yaşayan ermənilərin təhlükəsizliyi təmin olunacaq




### *Erməni xalqı Prezidentin humanist çağırışlarından ciddi nəticə çıxarmalıdır*

**Prezident İlham Əliyev "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransda çıxışı zamanı bir çox məqama toxunub. Dövlət başçısının diqqət yönəltdiyi mühüm mövzulardan biri də Qarabağda yaşayan ermənilərlə bağlı olub. Ölkə rəhbəri vurğulayıb ki, Azərbaycan dövləti erməniləri öz vətəndaşları kimi qəbul edir.**

Prezident vurğulayıb ki, Azərbaycan Ermənistandan fərqli olaraq çoxsaylı milli azlıqların nümayəndələrinin yaşadıqları ölkədir: "Ümid edirik, onlar da tezliklə anlayacaqlar ki, Azərbaycan vətəndaşları kimi bütün hüquqlara və təhlükəsizlik təminatlarına sahibdirlər. Onların hamısı ölkəmizdə sülh və əmin-amanlıq şəraitində yaşayır. Azərbaycanda erməni xalqının nümayəndələri də yaşayıblar və onlar heç vaxt hər hansı problemlə qarşılaşmayıblar. Buna görə də Ermənistanda azərbaycanafobiya təbliğatına son qoyulmalıdır. Ermənistanın bizimlə bağlı yaratdığı miflər heç vaxt sülhə töhfə verməyəcək". Ölkəmizdə yaşayış standartlarının Ermənistanla müqayisədə qat-qat üstün olduğunu qeyd edən dövlət başçısı bildirib ki, Qarabağda yaşayan ermənilərdən müsbət ismarışlar gəlməkdədir və ilkin kontaktlar da başlayıb: "Müharibədən sonra baş verənlər göstərir ki, bizim heç bir pis niyyətimiz yoxdur. Əksinə, biz sülh və ərazi bütövlüyümüzün tanınmasını istəyirik. Onlar vahid Azərbaycan dövlətində iqtisadi inkişafda iştirak edə, özlərini daha təhlükəsiz və rahat hiss edə bilərlər. Amma bunun üçün ilk növbədə separatizm meyillərinə son qoymalı, reallıqları anlamalıdırlar. Xəritəyə, coğrafiyaya nəzər yetirməli və anlamadırlar ki, yüz minlərlə azərbaycanlı ən yaxın gələcəkdə Kəlbəcərə, Laçına, Şuşaya, Ağdama qayıdacaq və onlar belə bir mühitdə, qonşuluq şəraitində yaşamalı olacaqlar. Düşmənçiliyə son qoymalı, separatçıları təcrid etməlidirlər. Bunun da faydasını görəcəklər".

**Ölkə rəhbərinin toxunduğu məqamı "Şərq"ə dəyərləndirən millət vəkili, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü Cavid Osmanov öndə bəyan edib ki, ölkəmizdə "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransın keçirilməsi çox əhəmiyyətlidir. Deputatın fikrincə, bu mühüm platforma Azərbaycan həqiqətlərinin və 44 günlük müharibədən sonra ortaya çıxan regional reallıqların dünya ictimaiyyətinə çatdırılması baxımından önəmlidir:** "Forumun birinci hissəsi Şuşa şəhərində keçirildi. Beynəlxalq konfransın işğaldan azad edilmiş ərazilərimizdə keçirilməsi təşəbbüsü ötən il məhz Azərbaycan rəhbərliyi tərəfindən irəli sürülmüşdü. Çünki Şuşa sadəcə mədəniyyət paytaxtımız deyil, eyni zamanda siyasi, diplomatik strateji mərkəzə çevrilməkdədir. Beynəlxalq tədbir üçün dünyanın müxtəlif ölkələrindən Şuşaya gələnlər yol boyu həm erməni vandalizminin izlərini, həm də aparılan sürətli quruculuq işlərinin şahidi oldular. Qarabağın əsl sahiblərinin kimlər olduğunu gördülər. Cənab Prezident Forumda bir çox mühüm məqama diqqət çəkdi və yeni reallıqlardan bəhs etdi. Ölkə başçısı vurğuladı ki, Ermənistanda azərbaycanlılara qarşı formalaşmış fobiya aradan qaldırılmalıdır. Çünki bu məsələ iki dövlət və xalq arasında münasibətlərin normallaşmasına mənfi təsir göstərir. Ermənistanda Azərbaycana nifrətin körüklənməsi sülhə böyük təhdiddir".

**Parlament üzvü qeyd edib ki, dövlət başçısının Qarabağdakı ermənilərə səslənməsi də olduqca mühümdür:** "Hamı çox gözəl bilir ki, Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə yaşayan ermənilərin həyat tərzi, sosial durumları Azərbaycanın digər bölgələri ilə müqayisədə ölçüyə gəlməz dərəcədə aşağıdır. Ermənistan Qarabağı 30 il işğalda saxlasa da, oranın Azərbaycana məxsus olduğunu bildiyi üçün bölgədə heç bir quruculuq işi aparmayıb. Daş daş üstə qoyulmayıb. Nəticədə Xankəndi və ətraf bölgələrdə ermənilər çox acınacaqlı vəziyyətdə ömür sürüblər. Ermənilərin gözü qarşısında Azərbaycan durmadan tərəqqi edir, sürətli inkişaf yolu keçir. Cəmi il yarım ərzində ölkəmizdə görülən nəhəng işlər erməniləri heyrətə düşürür. Bununla yanaşı Azərbaycan multikultural, tolerant ölkədir və çoxsaylı xalqların nümayəndələri rahat şəkildə yaşayırlar. Sözsüz ki, Azərbaycanın suverenliyini və qanunlarını qəbul edən ermənilər də vətəndaşımız olarsa, rahat həyat tərzi sürəcəklər. Eyni zamanda təhlükəsizlikləri də təmin olunacaq. Dövlət başçısı da bunu ermənilərin diqqətinə çatdırır və çağırış edir. Ermənilər Prezidentin humanist çağırışından ciddi nəticə çıxartmalıdırlar. İlk növbədə isə onlara mane olan separatçıların cavabını verməlidirlər".

**İsmayıl Qocayev**





# "Metrix.az" layihəsinin təqdimat mərasimi keçirilib

**Dünən Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə Azərbaycanın milli rəqəmsal media təhlili platformasının - "Metrix.az" layihəsinin təqdimat mərasimi keçirilib.**

"Şərq " xəbər verir ki, Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov müxtəlif istiqamətlərdə həyata keçirilən islahatların davamı olaraq onlayn media subyektləri üçün əlavə reklam fürsətlərinin yaradılmasında media təhlili platformasının əhəmiyyətini vurğulayıb. Bildirib ki, milli sayğac vasitəsilə veb-saytların reytinqinin müəyyənləşdirilməsi biznes strukturları üçün etibarlı data baza formalaşdıracaq. Medianın İnkişafı Agentliyinin onlayn media və rəqəmsal marketinq üzrə eksperti Fəxri Eminov media təhlili platforması - "Metrix.az" layihəsinə dair təqdimatla çıxış edib.

*Qeyd edək ki, "Metrix" təhlil platforması 50-dən çox yerli informasiya veb-saytı və keçirilən sorğular vasitəsilə ölkədə ən çox oxunan xəbərləri, günün trendlərini və müxtəlif digər statistik məlumatları özündə ehtiva edir.*

*Sizi faydalı, dolğun və əhatəli məlumat bazası portalı olan metrix.az-ın təqdimat mərasimində görməkdən məmnun olarıq.*

*Tədbir panel müzakirələrlə davam edib.*

# Heç nə gözdən yayınmır

## Azərbaycan Ermənistana silah daşınmalarına nəzarəti əhəmiyyətli dərəcədə artırıb



**Prezident İlham Əliyev ADA Universitetində keçirilən "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda çıxış edib. Prezident tədbir zamanı bəzi mühüm məqamlara toxunub.**

Ölkə başçısı bəyan edib ki, 44 günlük Vətən müharibəsi dövründə yük təyyarələri vasitəsilə Rusiyadan Ermənistana müntəzəm formada silahlar daşınıb: "Biz bu marşrutu izlədik - Rostovdan və Mozdokdan gəlirdi: "Gürcüstanlı dostlarımıza dedik ki, onlar hava məkanını bağlasınlar və bunu gerçəkləşdirdilər. Eyni zamanda Rusiyadan Ermənistana Gürcüstanın quru ərazisindən silah daşınmasının qarşısını almaqlarını söylədik. Onlar quru yolunu da bağladı. Biz Xəzəryanı dövlətlərə məktub göndərdik ki, onlar Rusiya yük təyyarələrinin öz ərazilərindən Ermənistana silah daşınmasına icazə verməsinlər.

Durum haqda Qazaxıstan, Türkmənistan və İrana müraciət yollamışdıq. Lakin təəssüf, həmin ərazilərdən silah daşınması üçün istifadə edildi və o silahlar Ermənistana daxil oldu".

**Vəziyyəti "Şərq"ə şərh edən siyasi şərhçi Aqşin Kərimovun sözlərinə görə, Azərbaycan hələ 44 günlük Vətən müharibəsi başlamazdan öncə Ermənistana silah daşınması marşrutunu çox diqqətlə izləyirdi:** "Müharibə zamanı texniki-kəşfiyyat imkanları daha da genişləndirilərək Ermənistana "uçan quş" da izləməyə götürüldü. Silah trafikində izləri itirmək üçün Rusiya səylər göstərsə də, başqa ölkələrin ərazisindən yararlansa da, nəticədə Azərbaycan bunu ifşa etdi.

Prezidentin mesajının mayasında gələcəkdə də Ermənistanı silahla qidalandırmağın qarşısının alınması dayanır. Azərbaycan post-münaqişə reallığında Ermənistan üzərində nəzarətini əhəmiyyətli dərəcədə artırıb və heç nə gözdən yayınmır.

Vizual müşahidələr, texnoloji imkanlar, strateji nöqtələrdəki mövqelərimiz Ermənistanı mühasirəyə alır. İrəvana hər hansı daşınma barədə dərhal operativ məruzələr edilir".

**Aygün Tahir**



**bildirib ki, hadisəyə nəzər saldıqda ailədə uşaqlar arasında yaş fərqinin hədsiz çox olduğunu görürük:**

"Eyni zamanda valideynlərin müəyyən bir yaş dönəmindən sonra dünyaya gətirdiyi uşaqlarına qarşı rəftarı da fərqli olur. Gec yaşlarda valideyn olan ata, analar övladına münasibətdə daha mülayim, bir çox yalnış hərəkətlərinə dözüb, göz yumur, yox deyə bilmir, hədsiz qayğıkeş davranış sərgiləyirlər. Bu, yaş psixologiyası ilə bağlı olan nüanslardır. Ona görə də yaxşı olar ki, uşaqlar arasında yaş fərqinin olmamasına diqqət etsinlər.

# Hər şey qədərində gözəldir

## Bəzi valideynlər bilmədən, istəmədən övladlarına zərər vermiş olur

**Son zamanlar demək olar ki, hər gün informasiyalar sırasında intihar xəbərlərinə də rast gəlirik. El arasında deyirlər ki, ölümün yaşı cavanlaşır. İndi bu ölümlər cərgəsinə intihar hadisələri də daxil olur. Hər bir insanın məişətdə, cəmiyyətdə problemləri ola bilir.**

Bəzən üzülürlər, inciyirlər, mübahisə edirlər. Amma bəziləri isə çıxış yolunu intiharda görür. Yaşadıqları həyat onlara canlarına qıymaqdan daha acımasız gəlir. Təbii ki, intihar etmənin heç bir haqlı tərəfi ola bilməz. Həyatda yaşadığımız əngəllərə, maneələrə rəğmən güclü olmağı bacarmalıyıq. İlk olaraq, özümüzlə, sonra isə cəmiyyətlə mübarizə aparmağa qadir olmalıyıq. Həyatın acı tərəfi ilə yanaşı, üzümüzə gülən yanının olduğunu da unutmamalıyıq. Bu dünyaya bir dəfə gəlirik, Allahın bizə bəxş etdiyi cana sahib çıxmalıyıq. Özünü öldürmək sadəcə acizlikdir. Qarşılaşdığımız çətinliklərə sinə gərərək, yaşamımızı daha asan, əyləncəli etmək biz insanların əlindədir. Bu gün təəssüf ki, hər yaş qrupunda olan, böyüyün də, kiçiyin də canına qəsd etdiyinin şahidi oluruq. Elə ötən günlərin birində baş verən 8 yaşlı uşağın intihar etməsi kimi. Azyaşlı hansı probleminə görə özünü öldürə edə bilər? Axı, o, hələ həyatının səkkizinci baharını yaşayırdı.

**Klinik-psixoloq, "Narınc" Psixologiya Mərkəzinin təsisçi rəhbəri, Psixologiya Elmi-Tədqiqat İnstitutunun "Yaş və İnkişaf Psixologiyası Şöbəsi"nin kiçik elmi işçisi Narınc Rüstəmova "Şərq"ə açıqlamasında**

***"Təcrübələrimizdə görürük ki, canına qəsd edən uşağın yaşının az olması və intihar cəhdi göstərir ki, onun güclü şəkildə planşet, oyun asılılığı olub"***

Çox zaman düşünülür ki, insanlar sevgisizlikdən intihar edirlər. Amma yadda saxlamaq lazımdır ki, insanlar gərəksiz sevgi çoxluğu ilə qarşılaşdıqda da bu yola sürüklənə bilir. Bilmədən, istəmədən övladlarımıza zərər vermiş oluruq. Hər şey qədərində gözəldir".

Psixoloq qeyd edib ki, anlaşıldığı qədərilə intihar edən azyaşlıda telefon, planşet asılılığı olub: "Ümumiyyətlə, dünyada aparılan araşdırmalara görə, telefon, televizor, internet, oyun aludəsi narkotik, siqaret, qumardan sonra dördüncü yerdə dayanır. Nəticə etibarilə beyinə eyni təsiri göstərir. Əgər bir uşaq gündə 8-10 saatdan artıq televizor, telefonda vaxt keçirirsə, burada artıq kəskin asılılıqdan danışa bilərik. Oyunlar oynanılarkən, internetdən istifadə edilən zaman beyində dopamin ifrazı artır və uşaqlar özünü xoşbəxt, rahat, özgüvənli hiss edirlər. Real həyatda bu hissi dada bilməyən, qapalı, ünsiyyət çətinliyi, evində, ailəsində, məktəb həyatında problemlər yaşayan azyaşlılar xüsusilə oyunlara, telefona bağlı olurlar. Smartfonlardan kənarda qalan övladlar özünü çarəsiz, bədbəxt, lazımsız hiss edir, depressiyaya, böyük bir boşluğa düşürlər. Bu da təəssüf ki, intihara səbəb olur".

N.Rüstəmova onu da əlavə edib ki, insanlar telefon əldə etmək üçün hər yola əl ata bilərlər: "Hətta təcrübəmizdə evi yandıran, anasını döyən, özünə və sevdiklərinə ölümcül zərbələr endirən uşaqlara rast gəlirik. Canına qəsd edən həmin uşağın yaşının az olması və intihar cəhdi göstərir ki, onun güclü şəkildə planşet, oyun asılılığı olub. Çünki anası iftar süfrəsi hazırlayarkən uşaqdan xəbər almayanda ağlına ilk olaraq, ondan gizli planşet oynatması gəlib. Çünki belə uşaqlara nə qədər qadağalar qoyulsa da, fürsət tapdıqca oyun oynamaq istəyirlər".

**Müsahibimiz valideynləri diqqətli olmağa çağırıb:**

"İndi elə bir dövrdür ki, uşaqları internetden, smartfonlardan tamamilə təcrid edə bilmərik və bu, doğru addım da deyil. Sadəcə, yaşlarına uyğun olaraq, istifadəni məhdudlaşdırmalı və nəzarətdə saxlamalıyıq. Yaxşı olar ki, övladlarımız ilə oyunlardan, internetdən istifadə qaydaları, oradan gələ biləcək təhlükələr barəsində öncədən danışaq, maarifləndirmə aparaq. Ən önəmli nüanslardan biri övladlarımıza çərçivələr qoyarkən öz davranışlarımıza da fikir verməliyik. Çünki onlar bizim sözlərimizdən çox hərəkətlərimizdən nümunə götürürlər. Əgər ana özü televizor, telefon aludəçisidirsə, ata evə gəldikdən sonra telefonu əlinə alıb, oyun oynayır, çatlaşırsa, gününün çox hissəsini telefonda keçirirsə, uşaqlarımızdan qaydalara riayət etməsini nə dərəcədə tələb edə bilərik?! Əgər valideynlər övladlarının öhdəsindən gəlməkdə çətinlik çəksələr, psixoloq dəstəyi almaqdan çəkinməsinlər".

**Sücayət Mehti**

# Paşinyan hələlik regional əməkdaşlığa ehtiyat edir

## Çünki Ermənistandakı daxili radikal qüvvələr təzyiq göstərirlər

**İsmayıl Qocayev**



***"Amma reallıq ondan ibarətdir ki, baş nazirin, eləcə də Ermənistan xalqının başqa çıxış yolu yoxdur"***

**Prezident İlham Əliyev "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransda çıxışı zamanı Azərbaycan, Ermənistan və Gürcüstan arasında üçtərəfli əməkdaşlıq formatından yenidən bəhs edib. Dövlət başçısı vurğulayıb ki, Ermənistanın üçtərəfli görüşün keçirilməsi haqqında Azərbaycan tərəfinin təkliflərini rədd etməsi, onların belə siyasəti heç bir məntiqə sığmır: "Bəlkə də onlara bir qədər vaxt lazımdır, onlar burada mümkün riskləri qiymətləndirməlidirlər, lakin mən hesab edirəm ki, bu, qaçılmazdır. Biz və bizim gürcü həmkarlarımız buna hazırdır. Məncə, bu, ilk addım ola bilər".**

Ölkə başçısı vurğulayıb ki, Azərbaycan və Gürcüstan enerji-nəqliyyat marşrutları müstəvisində bir-birinə inteqrasiya olunub. Prezident hesab edir ki, Ermənistanı da regional inkişafa qoşulmağa dəvət etmək imkanları mövcuddur: "Onlar bundan faydalanacaqlar. Onlar bizim enerji resurslarımıza çıxış əldə etməklə faydalana və müəyyən dərəcədə beynəlxalq nəqliyyat dəhlizlərinin bir hissəsinə çevrilə bilərlər. Bunlar, öz-özlüyündə müəyyən gəlir gətirə bilər. Azərbaycanla münasibətlərin normallaşdırılması Ermənistan üçün hətta indi proqnozlaşdırılması mümkün olmayan imkanlar açacaq".

Xatırladaq ki, dövlət başçısı aprelin 27-də Gürcüstanın Xarici işlər naziri İliya Darçiaşvilini qəbul edərkən Azərbaycan, Gürcüstan və Ermənistan arasında üçlü formatda qarşılıqlı fəaliyyət üçün yaxşı imkanlar olduğunu demişdi. Ölkə başçısı Azərbaycan tərəfinin buna hazır olduğunu qeyd etmişdi: "Gürcüstan da bu mövqeyi bölüşür. Ermənistanın da bunun regionda sabitliyin və təhlükəsizliyin bərqərar olmasının yeganə yolu olduğunu anlayacağına ümid edirik".

Prezidentin diqqət çəkdiyi məqamı "Şərq"ə dəyərləndirən Qərbi Kaspi Universitetinin professoru Fikrət Sadıqov bildirib ki, Ermənistan hələlik partnyorluq münasibəti qurmaqda çətinlik çəkir. Politoloqun sözlərinə görə, Ermənistandakı daxili radikal qüvvələr rəsmi İrəvana təzyiq göstərirlər: "Ermənistanda müxalif qruplaşmaların hökumətə qarşı etiraz aksiyaları təşkil olunur, Baş nazir Nikol Paşinyandan narazılıqlar dilə gətirilir. "Qarabağ klanı"nın nümayəndələri Paşinyanı satqın adlandırırlar. Belə şəraitdə Paşinyan hakimiyyəti Azərbaycanla əməkdaşlığa başlamağa tərəddüd edir. Amma reallıq ondan ibarətdir ki, baş nazirin, eləcə də Ermənistan xalqının başqa çıxış yolu yoxdur. Əgər Ermənistan dövləti özünü bataqlıqdan çıxartmaq istəyirsə, xalqın sosial problemlərini həll etmək fikrindədirsə, mütləq Azərbaycan və Türkiyə normal qonşuluq siyasətinə başlamalıdır. Regional kommunikasiyaların açılması, enerji və nəqliyyat dəhlizlərindən istifadə birbaşa ermənilərin maraqlarına xidmət edən amillərdir. Qonşu Gürcüstan bu reallığı başa düşdüyü üçün rəsmi Bakı ilə hərtərəfli əməkdaşlıq edir. Ola bilsin, Nikol Paşinyan mövcud prosesləri düzgün analiz edə bilir. Ancaq üzləşdiyi təzyiqlərdən dolayı əməkdaşlığa yaxın durmur. Hər halda rəsmi Bakı öz çağırışlarını davamlı şəkildə dilə gətirir. Dünyaya bəyan edirik ki, Azərbaycan sülhsevər dövlətdir və heç vaxt qonşularla normal münasibətlər qurmaqdan geri durmur.

# Gürcüstan qafqazlılara xas davranış sərgiləyir

## Azərbaycan Orta Asiya ölkələrindən də eyni alicənab hərəkətləri gözləyir



**Dövlət başçısı İlham Əliyev 44 günlük müharibədə Ermənistana silah-sursat yardımı edən və buna şərait yaradan ölkələrin adını çəkib. ”Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq” adlı beynəlxalq konfransda çıxış edən ölkə rəhbəri vurğulayıb ki, Ermənistan Qarabağdakı müharibəyə Rusiyanı cəlb etmək istəyirdi. Lakin bu, baş tutmadı: ”Ermənistan dəfələrlə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının öhdəlikləri ilə manipulyasiya etməyə cəhdlər göstərib. 44 günlük Vətən müharibəsi dövründə yük təyyarələri vasitəsilə Rusiyadan Ermənistana müntəzəm olaraq silahlar daşınıb.**

Biz bu marşrutu izlədik - Rostovdan və Mozdokdan gəlirdi. Biz gürcüstanlı dostlarımıza dedik ki, onlar hava məkanını bağlasınlar və onlar bunu etdilər. Eyni zamanda, onlara dedik ki, Rusiyadan Ermənistana Gürcüstanın quru ərazisindən silah daşınmasının qarşısını alsınlar. Onlar quru yolunu da bağladılar. Biz Xəzəryanı dövlətlərə məktub göndərdik ki, onlar Rusiya yük təyyarələrinin öz ərazilərindən Ermənistana silah daşınmasına icazə verməsinlər. Bu barədə Qazaxıstan, Türkmənistan və İrana müraciət yollamışdıq. Lakin təəssüflər olsun ki, həmin ərazilərdən silah daşınması üçün istifadə edildi və o silahlar Ermənistana daxil oldu”.

**Prezidentin təkrar toxunduğu məsələni ”Şərq”ə dəyərləndirən siyasi şərhçi Azər Həsrət deyib ki, Azərbaycan ictimai rəyi 44 günlük müharibə zamanı Qazaxıstan və Türkmənistanın öz ərazilərindən Ermənistana silah ötürülməsinə şərait yaratmasını təəccüblə qarşılamışdı. Ekspertin sözlərinə görə, əksəriyyət haqlı olaraq bu davranışı dost və qardaş ölkələrin münasibətlərinə zidd addım kimi dəyərləndirmişdi:** ”İranla bağlı neqativ məqamlara təəccüblənmirik. Tehranın Ermənistana münasibəti, hərtərəfli yardımları illərdir davam edir. Ermənistan-Azərbaycan münasibətlərində İranın birmənalı şəkildə ermənilərin yanında olması bəllidir. İndiki dönəmdə belə İran Azərbaycanla ”dost” görünməyə çalışsa da, üstünlüyü Ermənistana verir. Bizə ”din qardaşı” deyirlər, ancaq düşmənə qucaq açırlar. O baxımdan Tehranın yanaşması ciddi anlamda bizi məyus etmir. Amma təəssüflə qeyd edirik ki, Qazaxıstan və Türkmənistan kimi qanı-canı, soyu bir xalqlardan ibarət dövlətlər bunu etməməliydi. Məsələ ondadır ki, Azərbaycandan fərqli olaraq Orta Asiyanın qardaş ölkələri hələ də müstəqil siyasət yürütməkdə acizdir. Azərbaycan Türkiyə ilə birlikdə illərdir çalışır ki, Orta Asiyanın türk ölkələrinin mövqeləri daha da möhkəmlənsin. Rusiya kimi təcavüzkar dövlətin qarşısında duruş gətirmələri üçün imkanlar yaransın. Məhz o səbəbdən Türk Dövlətləri Təşkilatının güclənməsi üçün səy göstəririk. Əlbəttə, anlayırıq ki, Qazaxıstanın və Türkmənistanın erməni silahlarını öz ərazilərindən keçirməsi könüllü olmayıb. Bu, məcburi addım idi. Həmin dövlətlər qərarı özləri verəcək qədər müstəqil deyillər. Azərbaycan qədər sərbəst ola bilmirlər”.

**A.Həsrət vurğulayıb ki, Gürcüstan həqiqətən də qafqazlılara xas davranış sərgilədi:** ”Hətta Rusiyadan Ermənistana ”humanitar yardım” adı altında silah-sursat göndərilməsi belə gürcü hökuməti tərəfindən aşkarlandı və qarşısı alındı. Orta Asiya ölkələrindən də bu cür alicənab hərəkətlər gözləyirdik. Cənab Prezidentin məhz indiki məqamda bunu dilə gətirməsi təsadüfi deyil. Qardaş dövlətlər arasında neqativ hallar əsla olmamalıdır. Ümid edirik, hər iki ölkənin rəhbərliyi bu mesajı diqqətə alacaq və belə halların təkrarlanmaması, qardaşlıq münasibətlərinin zədələnməməsi üçün çalışacaqlar. Ən əsası isə Ermənistanla eyni səfdə dayanmayacaqlar. Bu, dövlət başçısı İlham Əliyevin iki türk respublikasına qardaş nəsihətidir. Niyyətimiz qardaş ölkələri suçlamaq deyil. Amma ”uman yerdən küsərlər”. Məqsədimiz odur ki, bundan sonra dost və qardaş türk dövlətləri bir-birini üzəcək, məyus edəcək əməllərdən uzaq olsunlar”.

**Politoloq Natiq Miri deyib ki, bəzi həqiqətlərin zaman-zaman dilə gətirilməsinə ehtiyac var. Ekspert bildirib ki, münasibətlər sistemində bütün ölkələri tərəzinin eyni gözünə qoymaq olmaz:** ”44 günlük Vətən müharibəsində kimlərin yanımızda, daha doğrusu, haqq-ədalətin yanında olduğunu gördük. Əlbəttə, bunu unutmamalı və yeri gəldiyində dünya ictimaiyyətinin diqqətinə çatdırmalıyıq. Bilinməlidir ki, qonşu və regional dövlətlər, xüsusən türk respublikaları Ermənistanla haqq savaşında hansı mövqedə dayanıblar. Rusiyanın hər vəchlə, müharibənin son gününə kimi Ermənistanı silahlandırması və müxtəlif yollarla hərbi texnikalar göndərməsi ermənilərin işinə yaramadı. Prezident dolayı yolla bəyan edir ki, Azərbaycan təkcə Ermənistanı deyil, həm də Rusiyanın hərb maşınını məhv edib. Ermənistanda Rusiyanın havadan müdafiə sistemlərindən tutmuş raket sistemlərinə qədər hər cür silah var idi. Buna rəğmən, ermənilərin işğalçı ordusu darmadağın edildi və təslim olmağa məcbur oldu”.

N.Miri dövlət başçısının türk ölkələrinə mesajını da şərh edib: ”Türk dövlətlərinə verilən mesaj bundan ibarətdir ki, Rusiya xofunu tədricən üzərlərindən atmaq lazımdır. Ortada Ukrayna nümunəsi var. Qorxaq mövqe ilə qardaş türk ölkəsini rus və ermənilərin ayağına vermək, öz ərazisindən Ermənistana silah ötürülməsinə imkan yaratmaq milli kimliyə xəyanətdir. Ölkə başçısının mesajı təkcə beynəlxalq tədbir iştirakçılarına deyildi. Həmçinin, türk toplumlarına ünvanlanmış mesaj idi. Həqiqətlərin dilə gətirilməsinin tərəfdarıyam və bunun doğru addım olduğunu düşünürəm. Hər kəs bundan öz payını götürməlidir”.

**İsmayıl Qocayev**



# Geosiyasi düzən dəyişib

## Rusiya iki ölkə arasında normallaşma prosesinin qarşısını ala biləcək

**”Azərbaycanla Ermənistan arasında böyük sülh sazişi zamanın diktəsidir. Ancaq Baş nazir Nikol Paşinyanın komandasından fərqli olaraq Ermənistandakı radikal-revanşist qüvvələr sülh anlaşmasının əleyhinə çıxış edir”. Bunu ”Şərq”ə açıqlamasında Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli deyib.**

Ekspert bildirib ki, Paşinyanı sülh sazişindən çəkindirən qüvvələr Ermənistan konstitusiyasını əsas tuturlar. Amma siyasi reallıq bundan ibarətdir ki, erməni revanşistlər bu şəkildə davam edərsə, Ermənistanın dövlətçiliyini ciddi təhlükə altında qoyacaqlar: ”Ermənistanın yeganə çıxış yolu öz qonşularına - Azərbaycana, Türkiyəyə və Gürcüstana qarşı torpaq iddialarından əl çəkmək və bu ölkələrə düşmənçilik münasibətini dayandırmaqdır. Mehriban qonşuluq, tərəfdaşlıq əlaqələri yaratmaq, iqtisadi-ticari əlaqələri bərpa etmək Ermənistanın xilas yoludur. Ermənistanın radikal qüvvələri müharibədən nəticə çıxartmalıdırlar. Onlar bir qarış torpağımızı belə silah gücünə zəbt etmək fikrinə düşsələr, bu dəfə daha ağır zərbə alacaqlar. Böyük güclərin marağına gəldikdə isə ABŞ və Avropanın münaqişənin tam həllinə, sülh sazişinin imzalanmasına çalışdıqları ortadadır. Ancaq digər tərəfdə rus sülhməramlılarının separatçıları açıq dəstəklədiyinin şahidi oluruq”.

**S.Əsədliyə görə, Kreml Qafqazda mövqelərini itirmək istəmir:** ”Qarabağ bu məsələdə həlledici məqamdadır. Rusiya ötən otuz il ərzində işğalın davam etməsinə dəstək verib. Amma geosiyasi düzənin dəyişməsi Azərbaycana imkan verdi ki, öz ərazilərini işğaldan azad etsin. Xüsusilə, Rusiyanın güclü vaxtında Azərbaycan bunu bacardı. İndi Avropa İttifaqı və ABŞ Minsk qrupunun fiaskosu ilə razılaşıb. Ermənistan rəhbərliyi də Azərbaycanın 5 prinsipini qəbul edib. O zaman Rusiyanın iki ölkə arasında başlayan normallaşma prosesinin qarşısını ala biləcəyini düşünmürəm. Bu, o zaman ola bilər ki, Ermənistanda hakimiyyət dəyişikliyi baş versin və ”Qarabağ klanı” yenidən iqtidarı ələ keçirsin. Üfüqdə isə belə bir perspektiv görünmür. Hazırkı durum və proseslərin ehtimal olunan inkişafı Rusiyanın bölgədə təsir gücünü itirəcəyini göstərir”.

**İsmayıl Qocayev**

# Danışıqlar birbaşa Azərbaycan və Ermənistan arasında aparılmalıdır

## Qarabağ üzrə xüsusi nümayəndələr də sülhə töhfə verməyəcək

**”Reallıqlar dəyişib və bunu hətta vasitəçilər də etiraf ediblər ki, hələ Rusiya-Ukrayna müharibəsindən əvvəl ATƏT-in Minsk qrupunun həmsədrləri arasında nə etməli olduqları ilə bağlı bir növ məyusluq var idi.**

Çünki Azərbaycan özü Madrid prinsiplərini həyata keçirirdi və mən elə müharibə başa çatandan sonra Minsk qrupunun nümayəndələri ilə görüşəndə dedim ki, təkliflər verin. Nə edəcəklər və gündəmləri nə olacaq? Və bilirəm ki, onlar üçün bəzi praktiki təkliflər irəli sürmək çox çətin idi”. Bu fikirləri Prezident İlham Əliyev ADA Universitetində keçirilən ”Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq” mövzusunda beynəlxalq konfransda deyib.

Ekspertlər isə ölkə başçısının bu sözlərini Azərbaycanın ATƏT-in Minsk qrupu ilə bağlı yekun qərarı kimi də qiymətləndirib.

**Politoloq Məhəmməd Əsədullazadə ”Şərq”ə açıqlamasında deyib ki, ”2-ci Qarabağ müharibəsindən sonra Minsk qrupu faktiki olaraq fəaliyyətini dayandırdı və aylardır bu təşkilatın fiasko məsələsi gündəmə gəlib:** ”Ukraynada müharibə başlayanda isə bu, təsdiqlənmiş oldu. Bu format münaqişənin həlli ilə məşğul olurdu. Ancaq məlum olduğu kimi, sözügedən uzun illər Minsk qrupu özünü doğrultmadı. Sevindirici haldır ki, Prezident İlham Əliyev qələbədən sonra Minsk qrupu ilə bağlı sərt və düzgün mövqe tutdu, bütün çıxışlarında həmin vasitəçilərə ehtiyac olmadığını açıq bəyan etdi.



Artıq Minsk qrupu lazımsız qurumdur, əhəmiyyətə malik struktur deyil. Qarabağ münaqişəsi hərbi yolla həll olunduqdan sonra Minsk qrupu həmsədrləri yalnız sülhə töhfə verə bilərdilər. Lakin Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin bağlanması üzrə danışıqlar xüsusi nümayəndələrin vasitəçiliyi ilə həyata keçirilir. Belə olan təqdirdə ATƏT-in Minsk qrupu formatı tarixin arxivinə qovuşmuş hesab olunur. Əslində xüsusi nümayəndələrin də sülh və danışıqlara töhfə verəcəyinə ümid etmirəm. Onlar da Minsk qrupu kimi Azərbaycan və Ermənistan arasında normal münasibətlərin qurulmasına əngəl ola bilər.

Sülh danışıqları Azərbaycan və Ermənistan arasında aparılmalıdır”.

**Şəymən**



# Yanğın hadisəsi hər bir şirkətin başına gələ bilər

## Ancaq əsas məsələ odur ki, daxili istehlak bazarı bunu hiss etməsin

**Ötən gün baş verən yanğında ”Azərsun Sənaye Parkı”na dəymiş ziyanla bağlı bəzi detallar məlum olub. Yanğın əvvəlcə plastik qablar fabrikindən başlayıb. Daha sonra kərə yağlarının yığıldığı soyuducu anbara keçib. Burada satışa çıxarılmaq üçün nəzərdə tutulan 5-6 aylıq yağ ehtiyatı olub. Məlumata görə, fabrik bir neçə aydır ki, anbarı doldurmaq üçün çalışırmış.**

Təkcə yağ anbarında yanan məhsullarla bağlı dəyən ziyanın on milyon manatlarla ölçüldüyü deyilir. Bildirilir ki, anbardakı yağ məhsulları təkcə yerli bazar üçün deyil, həm də xaricə ixrac üçün nəzərdə tutulubmuş: ”Plastik qablar fabriki yeni yaradılmış müəssisə idi və tam gücü ilə işləmirdi. Əsas zərər yağın istehsal edildikdən sonra ilk daxil olduğu əsas anbarla bağlıdır. Təkcə məhsula dəyən ziyan 20-30 milyon manat həcmində ola bilər. Amma dəyən ziyan təkcə məhsulla ölçülmür, orda istehsal avadanlıqlarına ziyan dəyib. Bundan əlavə, əsas depolama anbarlarından biri sıradan çıxıb. Yəni alternativ depolama yeri yaradılmalıdır. Bu, özü də böyük xərc tələb edir”. Fövqəladə hallar naziri Kəmaləddin Heydərov ”Azərsun Sənaye Parkı”nda baş verən yanğının ilkin səbəbini açıqlayıb. Nazirin sözlərinə görə, yanğın sahəsinin kənarında karton tullantıları olub. Ehtimal olunan ilk varianta görə, yanğın oradan başlayıb. Nazirin sözlərinə görə, müəssisənin özünün təhlükəsizlik kameralarında bu, əks olunub. Buna rəğmən, yanğının səbəbi ilə bağlı müxtəlif versiyalar da ortaya atılır. Çoxsaylı ehtimallarda yanğının təxribat məqsədi ilə törədildiyi qeyd olunub. Səbəb olaraq Ukraynaya Azərbaycan tərəfindən ard-arda göndərilən humanitar yardım göstərilib.

**İqtisadçı Pərviz Heydərov vurğulayıb ki, ”Azərsun Sənaye Parkı”nda baş verən yanğın hadisəsi ölkədə ərzaq məhsulları ilə təminat məsələsində aparıcı qüvvənin çoxsaylı deyil, yalnız bir və yaxud cəmi iki-üç şirkətin təşkil etməsi faktının nə qədər təhlükəli olduğunu bir daha sübut etdi.** Ekspertin sözlərinə görə, bu cür hadisələr hər bir şirkətin başına gələ bilər. Ancaq daxili istehlak bazarı bunu hiss etməməlidir. Əsas məsələ budur: ”Sözügedən hadisənin istehlak bazarımızda özünü necə büruzə verəcəyi və təsirlərinin ortaya çıxıb, çıxmayacağı bəlli deyil. Lakin ”Azərsun” aparıcı şirkətdir. Uzun illərdir ki, ölkəmizdə qida istehsalı, tədarükü və idxalı sahəsində həlledici rol oynayır. Məsələ bundadır ki, hazırda bu sahədə dünya bazarlarında da böhran hökm sürür. Ərzaq məhsullarının bəzi növləri üzrə qıtlıq və çatışmazlıq olacağı proqnoz edilir. İdxal bahalaşıb və üstəlik çətinləşib. Sözün qısası, ölkədə ərzaq sarıdan təhlükəsizliyi təmin etmək üçün təcili şəkildə həm yerli istehsal sahəsində, həm də idxal kanallarında diversifikasiyaya nail olunmalıdır. Ümumiyyətlə, geniş şəkildə rəqabət mühiti formalaşdırılmalı, həm daxildə, həm də xaricdə fors-major halları yaranarkən bunun istehlak bazarımızda təlatümlər ortaya çıxarda bilməsi amilləri mümkün dərəcədə aradan qaldırılmalıdır”.

**İsmayıl Qocayev**

# Azərbaycan Avropa İttifaqının səylərinə xüsusi önəm verir

## “Qərb strukturlarının qətiyyətli təşəbbüsləri olarsa, sülh prosesini sürətləndirə bilərik”




**”Bakı və İrəvanın nümayəndələri mayın əvvəllərində Brüsseldə görüşə bilər”. Bunu Prezident İlham Əliyev ”Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq” adlı beynəlxalq konfransda çıxışı zamanı deyib.**

Avropa İttifaqını (Aİ) Azərbaycanın mühüm tərəfdaşı adlandıran dövlət başçısı deyib ki, Aİ ilə Azərbaycanın çox geniş əməkdaşlıq gündəliyi var. Prezident bildirib ki, rəsmi Bakı Avropa İttifaqını vicdanlı aktor hesab edir və onun səylərini alqışlayır: ”İndi Minsk qrupu mövcud deyil, ona görə düşünürük ki, Avropa İttifaqı normallaşma prosesində öz rolunu oynaya bilər. Sülh sazişini imzalamağın vaxtı gəlib. Biz sülh və əmin-amanlıq şəraitində yaşamaq istəyirik. Belə tədbirlər istər Avropada, istərsə də Rusiya, Türkiyə və Amerikada keçirilə bilər, bununla biz ictimai diplomatiyanı, xalq diplomatiyasını başlaya bilərik. Bu cür tədbirlərə hətta Ermənistandan da mütəxəssislər dəvət oluna bilər. Yəni nifrət deyil, sülh təbliğatçıları olan mütəxəssislər də bu cür tədbirlərə dəvət edilə bilərlər”.

Dövlət başçısının növbəti görüş və sülh danışıqları ilə bağlı bəyanatını ”Şərq”ə şərh edən millət vəkili Ceyhun Məmmədov deyib ki, cənab Prezidentin sülh çağırışı çox önəmlidir. Deputatın sözlərinə görə, Azərbaycan tərəfi davamlı olaraq bu istiqamətdə müxtəlif tədbirlər həyata keçirir: ”Bu gün qarşımızda duran əsas məsələ müzakirələri, danışıqlar prosesini sürətləndirmək və sülhün imzalanmasına nail olmaqdır. Bu baxımdan Azərbaycan Avropa İttifaqının təşəbbüslərinə xüsusi önəm verir. Hesab edirik ki, Qərb strukturlarının qətiyyətli təşəbbüsləri olarsa, sülh prosesini sürətləndirə bilərik. Rəsmi Bakı üzərinə düşən bütün addımları tərəddüd etmədən atır. Ermənistanın da ümumi prosesə öz töhfəsini verməsi vacibdir. Problem odur ki, erməni tərəfi Azərbaycanın sülhə və münasibətlərin qurulmasına yönəlik davamlı çağırışlarına müsbət cavab vermir. Lakin əvvəl-axır sülh imzalanmalıdır. Cənab Prezidentin də dediyi kimi istənilən ölkədə tərəflərin iştirakı ilə geniş müzakirələr aparıla bilər”.

**İsmayıl Qocayev**

# Sənədsiz uşaqlar insan alveri qurbanlarının övladları deyil

## Dünyaya gəlmiş körpənin qeydiyyata salınmamasının müxtəlif səbəbləri olur

**Məlahət Rzayeva**

**2021-ci ildə qeydiyyat şöbələrinin və onların bu işə cəlb etdikləri icra nümayəndəliklərinin birgə fəaliyyəti nəticəsində əvvəlki illərdə doğulmuş, lakin müvafiq sənədləri olmayan 972 uşaq aşkarlanıb. Bu barədə məlumat Azərbaycanın İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorunun 2021-ci il üzrə illik hesabatında əksini tapıb. Hesabatda qeyd olunur ki, müvafiq sənədlərin olmadığı uşaqlardan 937-si qeydə alınıb, digərlərinə doğum faktının müəyyənləşməsi ilə bağlı məhkəməyə müraciət edilməsi üçün hüquqi yardım göstərilib.**

Sənədsiz uşaqlar arasında insan alveri qurbanlarının övladlarının olması ehtimalları da səslənir. Əsas məsələ isə bu uşaqların necə, hansı şəraitdə aşkarlanmasıdır. **Bu barədə "Şərq"ə danışan Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə qeyd etdi ki, uşaqların sənədsiz qalması sadəcə, valideyn məsuliyyətsizliyi, səhlənkarlığının nəticəsidir:**

- Xeyr, bu uşaqlar insan alveri qurbanlarının övladları deyil. Lakin onlar, məhz sənədsiz olduqlarına, qeydiyyata alınmadıqlarına görə insan alverinin potensial qurbanı hesab olunur. Bu uşaqlar əsasən valideyn diqqətsizliyi, səhlənkarlığı və məsuliyyətsizliyi səbəbindən qeydiyyata salınmayıb və heç bir sənədləri də olmayıb. Dünyaya gəlmiş körpənin qeydiyyata salınmamasının müxtəlif səbəbləri olur. Burada qeyri-rəsmi nikahdan doğulanlar, atalığın müəyyən olunmaması, evdə doğuş halları, baxımsız körpələr, valideynin imtina etdiyi körpələr, regionda doğulub Bakıda yaşayan, yaxud əks halın yaşanması səbəbləri var ki, bu kimi hallarda körpələr qeydiyyatdan kənar qalır və heç bir sənədləri də olmur. Bu uşaqlar arasında roman qrupuna aid ailələrin övladları da ola bilər. Məlumdur ku, ölkə ərazisində yaşayan romanların heç özləri qeydiyyata düşmür, nəinki körpələr.



*"Son zamanlar icbari tibbi sığorta üçün müraciətlərin artması da sənədsiz körpələrin aşkarlanmasına yol açır"*

**K.Ağazadə bildirdi ki, sənədsiz uşaqlar bir çox hallarda məhkəmə prosesləri zamanı aşkarlanır:**

- Atalığın müəyyənləşməsi, yaxud aliment təyini üçün məhkəməyə müraciət edildikdə məlum olur ki, körpənin heç bir sənədi yoxdur. Həkimə, poliklinikaya müraciət edildikdə sənəd tələb edilir. Son zamanlar icbari tibbi sığorta üçün müraciətlərin artması da sənədsiz körpələrin aşkarlanmasına yol açır. Bağçaya, məktəbəqədər hazırlığa, hətta məktəbə qeydiyyat üçün körpənin sənədi tələb edildikdə, valideyn "ayılır" ki, uşağın hələ də sənədi yoxdur. Azərbaycan Uşaqlar Birliyinə belə müraciətlər çox daxil olur, valideyn uşağa sənəd düzəltmək istədiyini deyir, biz də lazımi instansiyalara yönləndiririk. Uşaq gələcəkdə hər hansı problemlə üzləşməsin deyə, mütləq qeydiyyata alınmalıdır ki, müvafiq sənədləri də olsun, vətəndaşlığı da müəyyənləşsin.

**Baş prokuror Kamran Əliyev Ağstafa rayonunda vətəndaşlarla görüşü zamanı Tovuzda 10 yaşlı Nərmin Quliyevanı qətlə yetirməkdə ittiham olunan İlkin Süleymanovun qardaşı Adil Süleymanovu qəbul edib.**

**Adil Süleymanov "Şərq"ə açıqlamasında deyib ki, görüş zamanı İlkin Süleymanovun təqsirsizliyinə dair bir neçə sübut baş prokurora təqdim edilib:** "Kamran Əliyev cənabları ilə görüşdük. Artıq 3 ilə yaxındır, baş prokurorla görüşmək istəyirdik. Lakin nəticəsiz qalırdı. K.Əliyev Tovuz-Qazax-Ağstafa rayon sakinləri ilə görüş təşkil etmişdi. Müraciətimiz operativ cavablandırıldı, bizim də görüş günümüz müəyyənləşdi.



# "Ümid edirik ki, hər şey yaxşı olacaq"

## Baş prokuror Nərmin Quliyevanın işi ilə bağlı məlumatlıdır

İlkinin cinayətlə əlaqəli olmadığı barədə məlumat verdik. Kamran müəllim də cinayətə dair informasiyalı olduğunu söylədi. Lazımi qurumlara tapşırıqlar verdi. Əlimizdəki bəzi məlumatları sözügedən qurumlara çatdırmaq məsələsi nəzərə alındı. Ümid edirik ki, hər şey yaxşı olacaq". Xatırladaq ki, 2019-cu ilin noyabrın 19-dan itkin düşən Tovuz rayonunun Dondar Quşçu kənd sakini, 10 yaşlı Nərmin Quliyevanın qətlə yetirilərək yandırılan meyiti 2020-ci il yanvarın 6-da kənd ərazisində aşkar edilib.

Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluğun əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu tərəfindən cinayətin açılması istiqamətində həyata keçirilmiş təxirəsalınmaz istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində cinayəti törətməkdə şübhəli bilinən Dondar Quşçu kənd sakini, 1973-cü il təvəllüdlü Süleymanov İlkin İbrahim oğlu tutularaq istintaqa cəlb edilib.

*İş üzrə çoxsaylı şahidlər dindirilib, məhkəmə-tibbi, məhkəmə-bioloji, məhkəmə-kimyəvi ekspertizaları təyin edilib və digər zəruri istintaq hərəkətləri aparılıb.*

*İ.Süleymanova Cinayət Məcəlləsinin 120.2.4 (xüsusi amansızlıqla qəsdən adam öldürmə), 120.2.9 (təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı qəsdən öldürmə), 144.3 (adam oğurluğu) və başqa maddələr ilə təqsirli bilinərək barəsində cinayət işi açılıb.*

**Aygün Tahir**

# Bank sektorunda rəqabət güclənməlidir

## Belə olarsa, kredit faizlərinin aşağı salınması mümkün olacaq




**Son günlər müzakirə edilən önəmli məsələlərdən biri də kredit faizlərinin yüksək olmasıdır. Depozit faizlərində müəyyən azalmaların müşahidə edilməsinə baxmayaraq, kreditlər baha təklif olunmaqdadır.**

Mərkəzi Bankın məlumatına görə, hazırda kredit portfeli 18 milyard 7 milyon manatdır. Ötən ay isə kredit portfeli 17 milyard 587 milyon manat olub. Onun 13 milyard 81 milyon manatı milli valyutada, qalan 4 milyard 446 milyon manatı isə xarici valyutada təklif olunub. Baş bankın hesablamalarına görə, ölkə üzrə orta kredit faizi 11.86 faiz, milli valyutada isə 14.28 faizdir. Aydındır ki, Mərkəzi Bank orta kredit faizlərini hesablayan zaman bütün növ kreditləşmə üzrə qiymətləndirmə aparır.

**Millət vəkili Vüqar Bayramov bildirib ki, vətəndaşların daha çox istifadə etdiyi istehlak kreditləri üzrə faizlər elan olunan rəsmi orta rəqəmlərdən daha yüksəkdir.** Deputatın sözlərinə görə, kreditlərin 9 milyard 262 milyon manatı birbaşa ev təsərrüfatlarına yönəldilir: "Kredit faizlərinin yüksək olması nə ilə bağlıdır? Kreditlərin bahalı olması real sektorda gəlirlilik səviyyəsinin yüksək olması ilə əlaqədar olsa da, bank sektorunda rəqabətin zəif olması əsas səbəblərdəndir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, kredit faizlərinin azalması birbaşa banklar arasında rəqabətin daha da gücləndirilməsindən keçir. Doğrudur, Azərbaycanda depozitlər üzrə faizlərin yüksək olması da kreditləri bahalaşdırır. Amma bununla belə, yenə də kredit faizləri bir sıra hallarda depozit faizlərini 2 dəfəyə yaxın üstələyir. Kredit faizlərinin aşağı salınması üçün bank sektorunda rəqabətin güclənməsi, bu sektorda konservativ siyasətdən mərhələli şəkildə liberal siyasətə keçidin təmin olunmasına ehtiyac var. Rəqabətin güclənməsi, kredit faizlərinin aşağı salınması üçün baza formalaşdıra bilər. Bütün hallarda isə faizlərin optimallaşdırılması vacibdir. Kreditlərə əlçatanlığın artırılması üçün Mərkəzi Bank tərəfindən daha sistemli tədbirlərin həyata keçirilməsinə ehtiyac var".

**İsmayıl Qocayev**

# Milli rəqslərə maraq artıb

## İctimaiyyət rəqslərə göstərilən həvəsi dəstəkləməlidir

**29 aprel Beynəlxalq Rəqs Günüdür. Bakı Xoreoqrafiya Akademiyasının İncəsənət fakültəsinin dekanı, Əməkdar artist Sənan Hüseynli son 7-8 ili milli rəqsə dönüş adlandırıb:**

"Yaşından asılı olmayaraq milli rəqslərimizi öyrənmək üçün müraciətlər artıb: "Beynəlxalq tədbirlərdə ölkəmizi milli rəqslərimizlə təmsil edirik. Bununla yanaşı Azərbaycana gətirdiyim Latın Amerika rəqslərinə də maraq olduqca artmaqdadır. Tələbələr arasında Azərbaycanın tarixi ilə bağlı viktorina keçirilməsi nəzərdə tutulur. Eyni zamanda yarışlara da hazırlaşırıq. Sənətşünaslıqla bağlı alimlərimizin çıxışları da nəzərdə tutulur. İlin sonuna kimi bir çox silsilə tədbirlərin keçirilməsi planlaşdırılır".

**Kulturoloq Aydınxan Əbilov "Şərq"ə açıqlamasında bildirib ki, son vaxtlar nəinki Azərbaycanda, hətta dünyanın hər yerində, xüsusən də yeni nəsil gənclərin kreativ sənət sahələrinə maraqları getgedə artır:**

"Bunu da normal qəbul etmək lazımdır. Çünki fiziki əmək sərf edən zavodlar, kənd təsərrüfatı, iqtisadiyyatın müxtəlif sahələrində insan əməyinin istifadəsi getdikcə azalır. Həyatımızda artıq incəsənət və bununla bağlı estetik yüksək sənət sahələrinə aid işlər genişlənir. Həm peşəkarlar, həm də sadə vətəndaşlar bundan tez-tez yararlanırlar. Ona görə də xalq musiqiləri, rəqs sənətinin müxtəlif qolları inkişaf etməyə başlayır. Azərbaycanda da digər ölkələrdəki kimi, kreativ sənaye, kulturoloji biznes gündən-günə artmaqdadır. İnsanlar emosiyalarını, duyğularını cəmiyyətə incəsənətin dili ilə çatdırırlar".



*"İnsanlar silaha əl atmaqdansa, ziyanlı işlərlə məşğul olmaqdansa, rəqs kimi incəlik tələb edən estetik bir sahəyə yönəlirlər"*

**A.Əbilov rəqsin həm də sağlamlıq olduğunu diqqətə çatdırıb:**

"Özəlliklə də son vaxtlar gənclər Azərbaycanda və dünyanın müxtəlif yerlərində öz etirazlarını, fikirlərini ötürmək üçün rəqsdən istifadə edirlər. Bizə nə qədər qəribə gəlsə də, rəqs edərək video çəkib, onu sosial şəbəkələrdə yayan insanlara tez-tez rast gəlinir. İnsanlar silaha əl atmaqdansa, ziyanlı işlərlə məşğul olmaqdansa, rəqs kimi incəlik tələb edən estetik bir sahəyə yönəlirlər. Bu da onların yüksək mədəniyyətə meyilliyi, daha humanist, sivil olmasına dəlalət edir. Ona görə də ictimaiyyət rəqslərə göstərilən həvəsi dəstəkləməlidir. Bunu təkcə sağlamlıq, dəyərlərimiz xatirinə yox, həm də yaradıcı biznes məşğuliyyətinin təmin edilməsi, insanların ailə büdcəsini artıran, eyni zamanda ölkə iqtisadiyyatına xeyir verən bir sahə kimi hesab etməliyik. Dünyanın ən məşhur rəqs ansamblları var ki, milyonlarla tamaşaçı onları izləyir, konsertlərində iştirak edirlər".

**Sücayət Mehti**

**Özəlləşdirmə çekləri ilə bağlı məsələ yenidən gündəmdədir. 1990-cı illərdə vətəndaşlara mülkiyyət sahibi olmaq üçün paylanmış qiymətli kağızlar 2011-ci ildən bu yana tədavüldə deyil. Vətəndaşlar bunun qanunsuz olduğunu bildirir və hüquqlarının bərpa olunacağı günü gözləyirlər.**

Əksər deputatlar, ictimai şəxslər də zaman-zaman özəlləşdirmə çekləri ilə bağlı çağırışlar edirlər. Hesab edilir ki, bu məsələdə müvafiq dövlət strukturlarının daha geniş izahatlar aparmasına və bir sıra addımlar atmasına ehtiyac var. Çünki bu yöndə müraciət edən şəxslər konkret arqumentlərlə çıxış edirlər. Sovet dövrü və ya ondan əvvəlki illərdə ölkə daxilində yaranmış sərvətlərin 65 faizinin özəlləşdirmə çekləri vasitəsilə aparılması çeklərin üzərində yazılan "Bu özəlləşdirmə çekləri Azərbaycan Respublikasının dövlət mülkiyyəti ilə təmin edilir" sözləri ilə düz mütənasibdir. Çeklərin hər birinin dəyəri eynidir və 1 pay 4 çekdən ibarətdir. Bu hissəyə düşən əmlak ekvivalenti payı qanunda inflyasiyadan qorunan əmlak ekvivalenti payı kimi göstərilib. Əksər şəxslər özəlləşdirmə prosesində iştirak edə bilmədiklərini irəli sürürlər və o çekləri hələ də saxlayırlar. Vurğulanır ki, tədavüldən çıxarılan özəlləşdirmə çekləri qiymətli kağızlar hesab olunsa da, bu çeklərlə bağlı verilən qərarlar qanunvericiliklə düzgün aparılmayıb. Belə olan təqdirdə əlində çeki qalan şəxslərlə bağlı konkret addımlar atılmalıdır. Onların hüquqlarının bərpası üçün özəlləşmə zamanı hansısa payı özündə ehtiva edən mülklərlə bağlı tədbirlər görülməlidir. Qeyd olunur ki, bu məsələ "İnvestisiya fəaliyyəti haqqında" yeni qanunda da öz əksini tapa bilər. Bütün hallarda müvafiq mexanizm tapılmalıdır ki, prosesə yekun vurulsun. Çünki bu vauçerlər vətəndaşların halal haqqıdır və onların öz sərmayələrindən istifadə etmək hüquqları var.




# Ümidlə gözləyən insanlar var

## Özəlləşdirmə çeklərindən istifadəyə şərait yaradıla bilər

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov gündəmə gətirilən məsələ ilə bağlı "Şərq"ə danışarkən problemin müsbət həllinə tərəfdar olduğunu deyib. Lakin deputat vurğulayıb ki, özəlləşdirmə çekləri ilə bağlı müraciətlərə baxılması parlamentin imkanı çərçivəsində deyil:** "Vətəndaşların özəlləşdirmə çekləri ilə bağlı müraciətlərini İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti hökumətlə müzakirə etməli və həllini tapmalıdır. Əlbəttə, biz də istəyirdik ki, əllərində qiymətli kağızlar olan vətəndaşlar özəlləşdirmə prosesində iştirak etsinlər. Vaxtı ilə insanlar müəyyən səbəblərdən özəlləşdirmədə iştirak etməyiblər. Çeklərdən yenidən istifadə üçün müəyyən şərait yaradıla bilər. Təklif etmişdim ki, özəlləşdirmə çeklərindən istifadə etmək lazımdır, çünki bu, onların payıdır. İnvestisiya layihələrindən əlavə bəzi şirkətlər arasında özəlləşdirmə prosesi də gedəcək. Amma hələlik bununla bağlı müzakirə getmir".

**Millət vəkili Aydın Mirzəzadə "Şərq"ə açıqlamasında özəlləşdirmə çeklərinə sahib olan vətəndaşlara ölkə rəhbərliyinə, eləcə də müvafiq qurumlara müraciət etməyi tövsiyə edib:** "Əgər ortada problem varsa, vətəndaşlar özü, ya da onların adından bir qrup dövlət başçısına, yaxud baş nazirə müraciət etsinlər. Vətəndaşların rəsmi müraciətindən sonra bu məsələnin araşdırılması mümkündür. Bundan artıq heç nə deyə bilmərəm".

**İqtisadçı-ekspert Rəşad Həsənov isə "Şərq"ə məsələnin mürəkkəb olduğunu söyləyib:** "Əlbəttə, istəməzdim ki, əllərində özəlləşdirmə çeki olan vətəndaşlar öz haqlarından istifadə etməkdən məhrum olsunlar. Amma indiki şərtlər daxilində məsələ qəlizdir. Özəlləşdirmə prosesinin müddəti bir neçə dəfə uzadıldıqdan sonra 2011-ci ildə başa çatıb. Çeklərin yenidən dövriyyəyə buraxılması müzakirə mövzusu ola bilər. Lakin hökumətin yenidən bu məsələyə qayıtma ehtimalı aşağıdır. Özəlləşdirmə kifayət qədər problemli proses olub. Vaxtı ilə çekləri satanlar, özəlləşdirmədə istifadə edənlər də ciddi nəticə əldə etməyiblər. Yəni özəlləşmə prosesi qeyri-şəffaf və xaotik vəziyyətdə icra olunub. İndi hökumət dövlətə məxsus əmlakların qanunvericiliyə uyğun olaraq ancaq hərraclar vasitəsi ilə satışını həyata keçirir".

*Professor Məhərrəm Zülfüqarlı isə özəlləşdirmə çekləri ilə bağlı fikirlərini bu cür izah edib:* "Dövlət müstəqilliyinin bərpası vaxtı hamımıza özəlləşdirmə çekləri verildi. Amma sonra çeklər dəyərdən düşdükcə metroların qabağında dəyər-dəyməzinə satışa çıxarıldı. Bilirsiz ki, cəmiyyətdə həmişə ilkin kapital oğurluğu olub. Kimin oğurluq pulları var idisə, həmin pullarla camaatdan çekləri topladı və müəyyən qurumların özəlləşməsində iştirak etdi. Yəni qeyri-qanuni, neqativ yollarla hamısı "biznesmen" oldu. Kasıb yenə kasıb qaldı və nəticədə inam itdi. İndi Şeyx Nəsrullanın ölünü diriltməsi kimi bunu yenidən diriltmək istəyirlər. Bu da sosial problemləri olan, əlində üçbeş çeki qalmış vətəndaşlarda yenidən ümid yaradıb. Şəxsən, düşünmürəm ki, həmin çeklər yenidən böyük dəyərə sahib olacaq. Yəni kasıb təbəqənin bundan ciddi xeyir götürəcəyinə inanmıram. Ondansa, təqaüdləri, pensiyaları, əmək haqlarını artırsınlar".

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi



# Dövlətin rolu köklü dəyişir

## İqtisadi sektorda rəqəmsal transformasiyanı sürətləndirəcək addımlara ciddi ehtiyac var

**Dünya sürətlə rəqəmsallaşır və müxtəlif dövlətlər rəqəmsallaşma prosesinin sosial və iqtisadi həyata daha sürətli inteqrasiyası üçün proqramlar hazırlayaraq tətbiq edir, böyük korporasiyalar rəqabətdən geri qalmamaq üçün yüksək texnologiyalar vasitəsilə iri həcmli məlumatları emal edir, vətəndaşlar isə rəqəmsal texnologiyalardan hər gün getdikcə daha çox istifadə edirlər.**

Rəqəmsallaşama qlobal iqtisadiyyatın böyüməsi ilə nəticələnir. Hazırda rəqəmsallaşma və rəqəmsal kontentin yaradılması nəticəsində baza, periferik və son istifadəçi cihazlarında toplanılan məlumatların (qlobal məlumat sferası) həcmi sürətlə artır və 2025-ci ilə qədər 175 zettabayt olması proqnozlaşdırılır. Rəqəmsallaşma, rəqəmsal iqtisadiyyatın yaradılması istehlakçılar, dövlətlər və ümumilikdə cəmiyyətlər üçün mühüm imkanlar açır. Dünyada rəqəmsal iqtisadiyyatın tətbiqi üzrə ən qabaqcıl dövlətlər sırasında Sinqapur, Çin, Cənubi Koreya, Yeni Zelandiya və Danimarka qeyd edilə bilər. Bu dövlətlər rəqəmsallaşma, yüksək texnologiyaların tətbiqi istiqamətlərində mühüm təşəbbüslər reallaşdırıblar. Rəqəmsallaşma, rəqəmsal iqtisadiyyat quruculuğu hazırda həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan dövlətlər üçün əsas inkişaf istiqaməti hesab olunur.

Qloballaşma şəraitində rəqəmsallaşma prosesləri Azərbaycan üçün də geniş imkanlar açır. Hazırda ölkədə rəqəmsal baza infrastrukturun qurulması, İKT sektorunun dayanıqlı inkişafı istiqamətində özəl sektor da mühüm təşəbbüslər irəli sürülür.

Aprelin 28-də keçirilən "Rəqəmsal iqtisadiyyat: müasir çağırışlar və real imkanlar" adlı II beynəlxalq konfrans da məhz bu təşəbbüslərin reallaşmasını şərtləndirən addımlardan biridir.

Konfransda qlobal iqtisadi artımın qarşısında duran əsas problemlər, yüksək texnologiyalar yönümlü istehsal ekosistemi, iqtisadiyyatın rəqəmsal transformasiyası, yaşıl iqtisadiyyat və davamlı inkişaf, postpandemiya dövrünün iqtisadi çağırışları, pandemiya sonrası biznes transformasiyası və Azərbaycan iqtisadiyyatının keçmişinə və gələcəyinə baxış, Qarabağ iqtisadiyyatının bərpası və inkişafı prosesində rəqəmsal texnologiyalardan istifadə imkanları və prioritetləri kimi əsas mövzular müzakirə olunub.

**UNEC-in rektoru Ədalət Muradov konfransın ölkənin dayanıqlı, innovativ və rəqabətqabiliyyətli iqtisadi inkişafının təmin edilməsinin ən ciddi aləti olan rəqəmsal transformasiyanın müxtəlif aspektlərini müzakirə etmək və bu məsələni daim gündəlikdə saxlamaq məqsədilə təşkil olunduğunu bildirib:** "Rəqəmsal iqtisadiyyat əmək bazarını da çağırışlarla üz-üzə qoyur. Rəqəmsal iqtisadiyyat yeni və fərqli başarıqlar, yeni nəsil sosial müdafiə sistemi və işləməklə sərbəstlik arasında qarşılıqlı əlaqəni tələb edir. Müxtəlif iş yerləri və peşələr sıradan çıxır. Əmək münasibətlərinin böyük hissəsi və məşğulluğun böyük seqmentləri virtual mühitə keçir, məşğulluğun formalarının çevikliyi artır. Rəqəmsallaşma əmək bazarında yeni kompetensiyalar tələb edir ki, bu da bütövlükdə təhsil sisteminin yenidən qurulmasını tələb edir. Təhsilin transmilli formaları inkişaf edir. Sürətlə böyüyən qlobal təhsil bazarında yüksək rəqabətli mühit formalaşır".

Rəqəmsal iqtisadiyyatın həm də yeni biznes modellərini şərtləndirdiyini vurğulayan rektor hesab edir ki, yeni biznes modellərdə dəyərin yaradılmasının aparıcı mənbəyi məhz böyük verilənlərin yüksək sürətlə emalıdır. Çünki transaksiya real vaxt rejimində və bir sıra hallarda eyni vaxtda baş verir: "Rəqəmsal iqtisadiyyat həmçinin iqtisadi coğrafiyanın mövcud olan şimal-cənub bölgüsünü də köklü surətdə dəyişir. Bu coğrafiya artıq inkişaf etmiş ABŞ və inkişaf etməkdə olan Çin kimi iki ölkə tərəfindən istiqamətləndirir. Dövlətin rolu köklü dəyişir. Rəqəmsal texnologiyalar sahəsində lider ölkələrin hamısında dövlət müvafiq təşəbbüslərin drayveri kimi çıxış edir. Dövlətin fəal iştirakı olmadan rəqəmsal transformasiya və rəqəmsal iqtisadiyyatın formalaşması mümkünsüz görünür. Rəqəmsal iqtisadiyyat gəncliyin iqtisadiyyatıdır. Belə ki, gəncliyin potensialının, onun innovativliyinin reallaşdırılması, müstəqil qərarlar vermək, gələcəyi təmin etmək baxımından rəqəmsal iqtisadiyyat əvvəllər görünməmiş misilsiz imkanlar yaradır. Rəqəmsal iqtisadiyyatda gənclər oyun qaydalarını özlərinə uyğun dəyişirlər. Onlar artıq ətraflarında baş verənlərin müşahidəçilərindən, onları formalaşdıranlara çevrilirlər. Həm də nəzərə almaq lazımdır ki, rəqəmsal iqtisadiyyatın məhsul və xidmətlərinin də əsas istehlakçıları da məhz gənclərdir".

**İKT mütəxəssisi Osman Gündüz "Şərq"ə açıqlamasında "Rəqəmsal iqtisadiyyat: müasir çağırışlar və real imkanlar" mövzusunda keçirilən II beynəlxalq konfransı yüksək qiymətləndirib və UNEC-in bu istiqamətdəki səylərinin təqdirəlayiq olduğunu deyib:** "Bir Univetsitet olaraq bütün maraqlı tərəfləri, o cümlədən beynəlxalq nümayəndələri də bir araya gətirərək, bu sahəni ölkədə irəlilətmək üçün sistemli və ardıcıl olaraq çalışır. Əsas maraqlı tərəflərin, sektorda söz sahiblərinin çıxışlarında diqqəti cəlb edəcək, biznes və cəmiyyət üçün düşündürücü və proqnozlar qurula biləcək məqamlar yetərli görünmür. Hansı konsepsiyalar, hansı qanunlar və qərarlar ötən müddətdə olub, hansılar olacaq, hansıların zəruriliyi, qəbulunun planlaşması haqqında mesajlar eşitmədim. Müşahidələr isə göstərir ki, birbaşa mövzu ilə əlaqəli konseptual sənədlərin qəbulu uzun müddətdir ki, ləngiyir. Yeniliklər, yeni addımlar zəifdir, iqtisadi sektorda rəqəmsal transformasiyanı sürətləndirəcək addımlara ciddi ehtiyac var. Bu tip tədbirlərdə gərək mövcud situasiya və qarşıdakı illər üçün konseptual mesajlar verilsin, maraqlı tərəflərin daha optimal qərarlar qəbulu üçün informasiya istehsal olunsun.

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub




# "Xilaskar atanın Xilaskar oğlu"

**Azərbaycan ədəbiyyatında Qarabağ mövzusuna hələ biz ötən əsrin 80-90-cı illərindən rast gəlirik. Düzdür, bu illərdə bu mövzu azlıq təşkil etsə də, barmaqla sayılacaq qədər mükəmməl əsərlər yazılıb. Sonrakı illərdə Qarabağ mövzusu yazıçı və şairlərimizin əsərlərində geniş auditoriya qazanmağa başladı. Son illərdə Qarabağ mövzusunda yazılan əsərlər içərisində Aqil Abbasın "Dolu" romanı, Elxan Elatlının "Cəhənnəmdən gələn səs", Sabir Əhmədlinin "Ömür urası", Hüseynbala Mirələmovun "Dağlarda atılan güllə" və başqa yazıçı və şairlərimizin əsərləri diqqətə layiqdir. Qarabağ mövzusu həm də poeziyamızda geniş yer alıb.**

İndi, demək olar ki, bütün şairlərimiz bu qələbədən zəfər dolu şeirlər yazırlar. Tahir müəllim bu əsərində hər sözü yerində, məqamında işlətdiyi üçün poemanın dəyərini birə min artıra bilib. O, əsərdə yerinə düşməyən hər hansı bir söz, ifadə işlətməyib, əks təqdirdə mənanı dəyişər, mövzuya xal salar, sonda oxucunun əsəblərini tarıma çəkər, özündən çıxarardı. O, oxucu ilə özü arasında səmimilik yaradıb.

**Rəhbər haqq yolu seçdi, haqq oldu qibləgahı,**
**Xalqının keçmişiylə, qüdrətiylə öyündü.**
**Sonsuz düşüncələrlə açdı yeni sabahı,**
**Ürəyi torpaq eşqi, yurd dərdiylə döyündü.**

Ölkəmizin Ermənistan tərəfindən cəlb olunduğu və cəmi 44 gün davam edən müharibə - İkinci Qarabağ müharibəsi Azərbaycanın qələbəsi ilə başa çatdı. Azərbaycan Ordusu Ali Baş Komandanının ağıllı taktikaları və düzgün döyüş planları sayəsində şanlı Qələbə qazanaraq 30 il davam edən işğala son qoydu, ərazi bütövlüyünü bərpa etdi. Son 300 ildə (1722-ci ildə Səfəvilərin işğal olunmuş torpaqları geri qaytarması) ilk dəfə idi ki, Azərbaycanın işğal altında qalan əraziləri igid sərkərdəmizin - dövlət başçısının rəhbərliyi ilə geri qaytarıldı. Bu qələbə ilə Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanın yeni tarixinə qızıl hərflərlə yazılacaq sətirlərin müəllifi oldu və öz adını da tarixə əbədi yazdı.

**"Cavab verməliyik biz qana qanla!" -**
**Dedi, son nicatı bu yolda gördü.**
**Ali Baş Komandan böyük inamla,**
**Orduya əks hücum əmrini verdi!**

**Xalq ilə rəhbərin gücü önündə,**
**Düşmənlər əyildi, cəllad qul oldu.**
**Ən ağır məqamda, ən çətin gündə,**
**Rəhbərin seçdiyi düzgün yol oldu.**

44 günlük müharibə Azərbaycanın gücünü göstərdi, Silahlı Qüvvələrimizin rəşadətini göstərdi, qəhrəmanlığını göstərdi, xalqımızın birliyini göstərdi. Biz bir yumruq kimi birləşərək düşmənə sarsıdıcı zərbələr endirdik, düşməni torpalarımızdan qovduq. Qırx dörd günün hər bir günü qəhrəmanlıq dastanına çevrilib, hər bir günü bizim üçün əzizdir, doğmadır. Çünki hər gün bizim ordumuz irəli gedirdi, hər gün. Müzəffər ordumuz bir gün də geri addım atmayıb. Düşmən isə özgəsinin torpağında olduğunu nəhayət dərk edərək müharibənin son mərhələsində panikaya, isterikaya qapılaraq öz məğlubiyyətini artıq dərk etməyə başlamışdı.

**Xalq döyüşə girdi haqq deyə-deyə,**
**Rəhbərin gur səsi ucaldı göyə.**
**"Ey qanla, ölümlə öyünən yağı,**
**Murdar əllərini torpağımdan çək!**

**Heç zaman vermərik biz Qarabağı,**
**Haqq-ədalət mütləq qalib gələcək"!**
**Bu yurdda zalımın çırağı sönər,**
**Faşizmin toxumu cücərə bilməz.**

Xalqımız üçün torpaqlarımızın işğaldan azad edilməsi ümummilli məsələ idi, heç vaxt biz bu vəziyyətlə barışmadıq və bunu açıq bəyan etdik. 44 günlük müharibə Azərbaycanın şanlı tarixidir. Bu tarix əbədi qalacaq, bu tarix dərindən öyrənilməlidir və öyrənilir. Dünya miqyasında Azərbaycanın göstərdiyi yeniliklər öyrənilir. Bu Vətən müharibəsi Azərbaycan övladının vətənpərvərliyini, cəsarətini, şücaətini üzə çıxardı. Ancaq bayrağı sancan, bayrağı ucaldan, öz sinəsini qabağa verən, ölümə gedən Azərbaycan əsgər-zabiti idi. Biz, qalib xalq kimi bu müharibəni, bu Qələbəni bizim qəhrəman hərbçilərimizə borcluyuq, şəhidlərimizə borcluyuq. İstənilən texnika, istənilən maddi imkanın olsa da, əgər Vətən sevgisi yoxdursa, milli ruh yoxdursa, Vətən uğrunda ölümə getməyə hazır deyilsənsə heç vaxt Qələbə qazanmazsan. Bizim qəhrəman övladlarımız öz sevgilərini şəhid olmaqla, yaralanmaqla, qazi olmaqla göstərdilər. Yurdumuzun işğal altlnda saxlanılan ərazilərini qısa müddətdə azad etməklə, dövlətimizə iyirmi birinci əsrin qələbəsini qazandırdılar. 200 illik tarixdə ilk dəfə olaraq xalqımız böyük zəfərin təntənəsini yaşadı.

İkinci Qarabağ müharibəsi bir daha Azərbaycan xalqının əzmini, iradəsini bütün dünyaya göstərdi və bu şanlı Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan xalqı müzəffər xalq kimi yaşayacaq, qürur hissi ilə yaşayacaq.

*"Xilaskar atanın Xilaskar oğlu" poemasının müəllifi olan Tahir Rzayev əsəri bu bəndlə tamamlayır:*

**Verdi qiymətini dövri-zamanın,**
**Azadlıq amalı, ədalət yolu.**
**Aldı öz haqqını Azərbaycanın,**
**Xilaskar atanın Xilaskar oğlu.**

*Və inanmaq istərdim ki, Tahir müəllimin 44 günlük böyük Zəfərimizdən bəhs edən bu kitabı oxucular tərəfindən maraqla qarşılanacaq.*

**Daşdəmir Əjdəroğlu**

# 500 nəfərlik toylar başlayır

## Şadlıq sarayları qiymət artımını qonaq sayı ilə kompensasiya edə bilər

**Məlahət Rzayeva**

**Ramazan ayının sona çatmasıyla şadlıq saraylarının bazarı işə düşəcək. Bir ay "dişini sıxan" şadlıq sarayları mübarək ay bitər-bitməz qapılarını taybatay açacaq. Hərçənd Ramazan ayında toy-nişan edənlər az da olsa vardı. Amma kütləvilik bir-iki gündən sonra başlayacaq.**

Artıq sifarişlər alınır, tarixlər müəyyənləşir, yerlər tutulur. Ərzaq, ya qeyri-ərzaq, fərq etmir, ümumi qiymət bahalaşması fonunda şadlıq saraylarının da qiymətləri qaldıracağı şübhəsizdir. 2 ilə yaxındır pandemiya səbəbindən ürəyi istəyən formada toy edə bilməyənlərin qarşısında artıq heç əngəl qalmayıb, qiymətlərdən savayı. Şadlıq saraylarının qiymətində ötən il - karantin qaydaları yumşaldılıb, toy məclislərinə COVİD pasportu tələbi və qonaq sayına məhdudiyyət qoyulduğu zaman artım oldu. Şadlıq saraylarının rəhbərləri qiymət artımını "qonaq sayı azdır, bunu qiymətlərlə kompensasiya etməyə məcburuq", deyərək səbəbi məhdudiyyətlərə bağladılar. Lakin artıq say məhdudiyyəti aradan qaldırılıb, gözlənilir ki, tibbi maska qadağası qaldırılırsa, COVİD pasportu tələbi də ləğv ediləcək. Qadağaların ləğvi toy qiymətlərinin qalxmamasına səbəb ola bilərmi?

**İqtisadçı Natiq Cəfərli "Şərq"ə açıqlamasında qeyd etdi ki, qadağaların qaldırılması əslində qiymətlərin ucuzlaşmasına şərait yaradır:**

- Karantin qaydalarına dəyişiklik edilib toy məclislərinə icazə verildikdə qonaq sayının 150-dən artıq olmaması şərti qoyuldu. Bu da sahibkarlara sərf etmədiyindən qiymətlərdə artım oldu, çünki az qonaq sayını qiymətlərlə kompensasiya etməyə çalışdılar. Amma artıq qonaq sayına məhdudiyyət yoxdursa, əvvəlki kimi toylar 500 nəfərlik, hətta daha artıq dəvətli ilə keçiriləcəksə, bu, qiymətlərin sabitləşməsinə, hətta ucuzlaşmaya da səbəb olmalıdır. Məntiqlə belədir. Qiymətlərdə sabitləşmə gözləmək olar. Amma başqa bir nüans var ki, bu da ərzaq qiymətlərindəki 18 faizlik inflyasiyadır. Bu, əlbəttə ki, ərzaq məhsullarının qiymətinin bahalaşmasına səbəb olub, ərzağın qiymətində hazırda nəzərə çarpacaq artım var. Qiymətlərin enəcəyi ehtimalı da azdır. Şadlıq sarayları ərzağın qiymətindəki artımı səbəb göstərəcək. Lakin şadlıq sarayları vətəndaşların da qiymət bahalığından əziyyət çəkdiyini, zərərçəkən olduğunu nəzərə alıb, qiymət artımını qonaq sayı ilə kompensasiya edə bilər. Yəni toylara əvvəlki qaydada qeyri-məhdud sayda qonaq dəvət ediləcəksə, qiymətləri qaldırmamaq olar. Çünki əhalinin də maddi durumu nəzərə alınmalıdır. Şadlıq sarayları yaranmış şəraitdən istifadə edib sifarişçiyə uyğun qiymətlər təklif edib, ərzaq qiymətlərindəki artımın qarşısını qonaq sayı ilə kəsə bilər. Zatən toylarda 3 cür menyü təklif edilir: sadə, orta və bahalı. Hər kəs də imkanı daxilində menyünü seçir.



*"Görək karantindən sonrakı toy məclisləri, yas mərasimləri necə olacaq, hansısa dəyişiklik baş verəcəkmi? Pandemiya da bizim insanların təfəkkürünü dəyişməyibsə, daha deməyə söz qalmır"*

**N.Cəfərli qeyd etdi ki, əslində pandemiya toy və yas mərasimlərinin keçirilmə qaydalarında dəyişiklik ediləcəyinə ümidləri artırır:**

- Lakin vətəndaşlarımız bununla razılaşacaqmı? Aydın məsələdir ki, bizdə toyda da, yasda da hədsiz israfçılığa yol verilir. Düşünmürəm ki, dünyanın hansısa ölkəsində bizdəki kimi toy və ya yas keçirilsin. İlk növbədə vətəndaşların toy və yas mərasimi barədə düşüncəsi dəyişməli və bu dəyişiklik davranışlarda əksini tapmalıdır. Toyların keçirilmə qaydasını dəyişmək olar. Yersiz rəqabət, nəticədə isə israfçılıq və ziyana uğramaq, hətta müflisləşmək nəyə lazımdır? Görək karantindən sonrakı toy məclisləri, yas mərasimləri necə olacaq, hansısa dəyişiklik baş verəcəkmi? Pandemiya da bizim insanların təfəkkürünü dəyişməyibsə, daha deməyə söz qalmır.

# 2 il həbsdə yatdı, təqsirsiz olduğu üzə çıxdı

## Bəraət almış şəxsə 2 il 6 ay müddətində məhrum olduğu əmək haqqı verilməlidir



**Lənkəran sakini Nurlan Ağazadə 2 il 6 ay həbsdə saxlanandan sonra təqsirsiz olduğu üzə çıxıb. 2019-cu ilin noyabrından həbsdə olan 30 yaşlı Ağazadə aprelin 25-də Bakı Apellyasiya Məhkəməsində azadlığa buraxılıb.**

Belə ki, Bakıda tikintidə fəhlə işləyən Nurlan ölümlə nəticələnən yol qəzası törətməkdə ittiham olunub. İddia edilib ki, o, hadisəni törədəndən sonra qaçıb və maşınla vurduğu 32 yaşlı qadın ölüb. Bakı Ağır Cinayətlər Məhkəməsi ona 7 il 6 ay həbs cəzası verib.

N. Ağazadə məhkəmədə qəzanın əmisi tərəfindən törədildiyini, lakin əmisinin xahişi ilə qəzanı üzərinə götürdüyün bildirib. Əmisi ona azyaşlı övladlarının olduğunu, evə ondan başqa qazanc gətirənin olmadığını deyərək, bu işi öz üzərinə götürməsini istəyib. Əmisi ona söz verib ki, nəyi varsa, satacaq və onun həbsdə qalmasına imkan verməyəcək. N. Ağazadə Bakı Ağır Cinayətlər Məhkəməsində ifadə verərkən, sürücülük vəsiqəsi belə olmadığını, hadisə baş verəndə iş yerində olduğunu deyib.

Tikintinin icraçısı Qoşqar Sultanov da hadisə vaxtı Nurlanın tikintidə olduğunu təsdiqləyib: "Dedi ki, əmimin balası var, bu işi boynuma götürəcəm. Danladım, xeyri olmadı".

Nurlan Ağazadənin vəkili Yeganə Məmmədova müvəkkilinin 2 il 6 ay günahsız həbsdə saxlanmasıyla əlaqədar kompensasiya almaq üçün məhkəməyə müraciət edəcəklərini bildirib.

**Məsələ ilə bağlı "Şərq"ə açıqlama verən hüquqşünas, vəkil Adəm Məmmədov isə Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində bəraət almış şəxsin hüquqları ilə bağlı ayrıca bəndlər olduğunu deyib. Onun sözlərinə görə, cinayət prosesinin gedişində haqqında məhkəmənin bəraət hökmü çıxarılmış şəxslərin pozulmuş hüquq və azadlıqlarının bərpasını və onlara vurulmuş ziyanın ödənilməsini tələb etmək hüququ cinayət prosesini həyata keçirən orqan tərəfindən təmin edilməlidir:** "Bəraət almış şəxslər cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində vurulmuş mənəvi, fiziki və maddi ziyanın ödənilməsi hüququna malikdirlər. Həmçinin, bu şəxslərin əmək və mənzil hüquqları bərpa edilməli, bunlar mümkün olmadıqda isə həmin hüquqların pozulması nəticəsində dəyən ziyanın pul kompensasiyası təmin edilməlidir. Ona vurulan maddi ziyan əsaslandırılaraq hesablandıqdan sonra kompensasiyası verilməklə tam həcmdə ödənilməlidir. Fiziki və mənəvi ziyan Azərbaycan Respublikasının qanunvericiliyi ilə digər hal nəzərdə tutulmayıbsa, məhkəmə tərəfindən ədalətli hesab olunmuş məbləğdə ödənilir.

Bəraət almış şəxsə 2 il 6 ay müddətində məhrum olduğu əmək haqqı verilməlidir. Qanunvericilik bu şəxslərin vurulmuş ziyanın ödənilməsi ilə bağlı digər hüquqlarının da bərpasını təsbit edir. Həmin hüquqlara əvvəlki vəzifəsinə bərpa olunmaq, bu mümkün olmadıqda isə ona bərabər vəzifəyə təyin olunmaq aiddir. Ən azından iş yerini itirməsi ilə əlaqədar vurulmuş ziyana görə pul kompensasiyası tələb olunmalıdır".

**A.Məmmədovun sözlərinə görə, Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 126.6 maddəsinə görə cinayət sübutlarla təsdiq olunmalıdır. Cinayət məcmu halda təsdiqini tapmalıdır. Şəxsin cinayət törətməsini etiraf etməsi onun təqsirli olmasına dəlalət etmir. Onun hərəkəti sübutlarla təsdiqini tapmalıdır:**

"Bu cinayət işində istintaq orqanlarının səhlənkarlıq etdiyi ortadadır. Təqsirləndirilən şəxsin etirafından sonra hadisə yerində araşdırma aparılmalı, sükan arxasında olan şəxsin kimliyi müəyyənləşdirilməli idi. Qəzanın baş verdiyi ərazidə videogörüntü olmasa belə, hadisədən 5-10 dəqiqə əvvəl hansısa müşahidə kamerasının altından keçməsinə baxmaq lazım idi. Qəza zamanı sükan arxasında əminin, oğlanın isə eyni saatlarda işdə olduğunu müəyyən etmək o qədər də çətin bir proses deyil. Deməli, istintaq orqanları bilərəkdən bu qanunsuzluğa göz yumub. Kimin hansı ifadə verməsindən asılı olmayaraq bu qəzanı detallı araşdırmaq və əsl cinayətkarı ifşa etmək istintaq orqanlarının başlıca vəzifəsidir. Mən bu hadisədə korrupsiya elementlərinin olmasını da istisna etmirəm. Müstəntiq hadisənin mahiyyətini araşdırmadan təqsirləndirilən şəxs haqqında necə hökm çıxarılıb. Qanunvericiliyə görə, həqiqətə nailolma və sübutetmə istintaqın vəzifəsidir".

*"İstintaq orqanları bilərəkdən bu qanunsuzluğa göz yumub. Kimin hansı ifadə verməsindən asılı olmayaraq bu qəzanı detallı araşdırmaq və əsl cinayətkarı ifşa etmək istintaq orqanlarının başlıca vəzifəsidir"*

**Şəymən**

## Afaq Bəşirqızı: "Ağadadaşa Prezident təqaüdü verilməlidir"



**"Ağadadaş Ağayevə xəstəliyində heç kəs kömək etmədi. Dövlət rəhbərindən başqa heç yerdən yardım olmadı. Lazımi köməkliyi dövlət başçısı edib".**

Bu sözləri Xalq artisti Afaq Bəşirqızı "Günün sədası" proqramında deyib. Aktrisa xərçəngdən əziyyət çəkən və 6 dəfə müalicə olunan Xalq artisti Ağadadaş Ağayevin Prezident təqaüdü almasını istədiyini bildirib:

"Prezident təqaüdü almır, amma almalıdır. Hər kəsin haqqı verilməlidir. Ağadadaşın 20, 25, 35 yaşı olsaydı, deyərdim tezdir. 60 yaşından verirlər. İndi verilməlidir. Bu işlərə elə adam baxır ki, bilirəm, haqqı haqqa qurban verməyən qadındır. İnanıram veriləcək. Pulunu saymıram. Onun Prezident təqaüdçüsü adını sayıram".

**Elan**

"CASPİAN FİSH CO AZERBAİJAN" MMC
VÖEN 3100064091

"CASPİAN FİSH CO AZERBAİJAN" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN 3100064091) nizamnamə kapitalının 1004.80 (min dörd manat səksən qəpik) manat məbləğdən 100 (yüz) manat məbləğə azaldığını elan edir. Nizamnamə kapitalının azaldılması ilə əlaqədar kreditorlar bir ay ərzində öz tələblərini AZ0100, Abşeron rayonu, At-Yali kəndi ünvanına bildirə bilərlər.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
**-Dizayn** (3-6ay)
**-Masaj** (3 ay)
**-Biçmə - Tikiş** (3 ay)
**-Məktəb Psixologiyası** (12 ay)
**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**

# Təmiz bala xaricdə də tələb yüksəkdir

## Kəlbəcərin əlverişli təbiəti arıçılığı inkişaf etdirməyə imkan verir



**Bu il Kəlbəcər yaylaqlarına 20 mindən artıq arı ailəsinin köçürülməsi planlaşdırılır. Kəlbəcər rayonu üzrə 28 mindən çox arı ailəsi Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində qeydiyyatdan keçib.**

Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumata görə, portalda qeydiyyatdan keçmiş arıçılıq təsərrüfatlarının rəhbərləri 10-12 may tarixlərində Göygöldə yerləşən ANAMA-nın Təlim Mərkəzində azad olunmuş ərazilərdə xüsusi davranış qaydaları ilə bağlı təlimlərə cəlb olunacaq. Təlimləri başa vurmuş fermerlər köç etdikləri ərazilərdə müvafiq təlimata uyğun davranacaqlarına dair iltizamnamə imzaladıqdan sonra, onların mərhələli şəkildə yaylaqlara köçü təmin ediləcək. Azad olunmuş ərazilərə ötən il olduğu kimi yenə də yalnız həmin rayondan olan fermerlərin təsərrüfatları köçürüləcək. Bu il Kəlbəcər yaylaqlarına həmçinin Azərbaycanın müxtəlif bölgələrində fəaliyyət göstərən damazlıq arıçılıq və qoyunçuluq təsərrüfatlarının da köçürülməsi nəzərdə tutulur.

Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlığın təşkili və monitorinqi şöbəsinin müdiri Eldar Həsənovun sözlərinə görə, ötən il ilk dəfə pilot layihə çərçivəsində Kəlbəcər və Laçın yaylaqlarına arıçılıq təsərrüfatlarının köçü təmin edilib. Mövsümü doğma yaylaqlarda keçirən arıçılıq təsərrüfatlarında yüksək məhsuldarlıq əldə olunub.

**Millət vəkili, iqtisadçı Vüqar Bayramov "Şərq"ə açıqlamasında deyib ki, rayonun iqtisadiyyatının əsasını kənd təsərrüfatı, xüsusilə də heyvandarlıq təşkil edib.** İşğaldan sonra da qoyunçuluq, maldarlıq və arıçılıq təsərrüfatlarını yaratmaqla bu sahələri rayonun iqtisadi inkişafında aparıcı sahələrdən birinə çevirmək olar. Bununla paralel kənd təsərrüfatının əkinçilik və bitkiçilik potensialından da maksimum yararlanmaq lazımdır.

Deputatın sözlərinə görə, bölgənin uzun müddət erməni işğalında qalması çox təəssüf ki, həmin iqtisadi potensialdan istifadəyə imkan verməyib: "Kəlbəcər kifayət qədər böyük iqtisadi potensiala malik aqrar sektordur, o cümlədən arıçılıqda xüsusi imkanlara malikdir. Kəlbəcərin əlverişli təbiəti arıçılığı inkişaf etdirməyə imkan verir. Çünki burada olan dağlar, eləcə də meşələr arıçılığın inkişafı üçün kifayət qədər yeni imkanlar yaradır. Bal məhsullarına, xüsusən də təmiz bala həm ölkə daxilində, həm də xaricdə tələb yüksəkdir. Azərbaycanda son dövrlər kənd sahələrində yeni təsərrüfatın qurulması prioritet istiqamətlərdəndir. Bunun da təbii ki, ilk növbədə ölkəmizdə arıçılığın inkişafına xüsusi təkan verəcəyi gözlənilir".

*Millət vəkilinin fikrincə, Kəlbəcərdə arıçılığın inkişaf etməsi Azərbaycanda istehsal edilən və eləcə də ixrac edilən balın həcmini artıracaq.* Bu isə ixrac nəticəsində daha çox valyutanın daxil olmasına və bütövlükdə, aqrar sektor daxil olmaqla, kənd təsərrüfatının inkişafına imkan yaradacaq. Ona görə də arıçılıq kifayət qədər potensialı olan prioritet sahələrdən biridir. Təbii ki, son bərpa, yenidənqurma prosesi göstərir ki, biz daha qısa zamanda Kəlbəcərin yenidən Azərbaycan iqtisadiyyatına töhfə verməsini müşahidə edəcəyik".

**Şəymən**

## Aktivlik artır

### Gənclər "Vikipediya"da işləməyin qaydalarını mənimsəyirlər




**Ölkədə "Vikipediya"nın inkişafında təşkil edilən təlimlərin xüsusi rolu var. Keçirilən təlimlər yeni könüllülərin sırasının çoxalmasına səbəb olur. Bu isə "Vikipediya" platformasında aktivliyi artırır.**

**Bu barədə "Şərq"ə "Vikipediya" üzrə mütəxəssis, diaspor üzrə araşdırmaçı-ekspert Elnur Eltürk məlumat verib. O bildirib ki, son illər ölkədə "Vikipediya" təlimləri intensiv keçirilir.** Gənclər təlimlərə böyük maraq göstərirlər. Könüllülər təlimlər nəticəsində "Vikipediya"da işləməyin qaydalarını mənimsəyirlər. Bu yaxınlarda AMEA Mərkəzi Elmi Kitabxanasında (MEK) "Vikipediya" təlimlərinə yenidən başlanılması ölkədə bu prosesin sürətlənməsinə böyük təkan verib. Belə ki, Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının, MEK-in, "Qorqud" Vikipediya Metodik Klubunun təşəbbüsü ilə keçirilən təlimlər öz müsbət nəticəsini göstərir. Təlimlərdə iştirak edən Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya və Filologiya fakültələrinin tələbələri 50-dən yuxarı məqalə yaradıb və əsaslı redaktə ediblər. Ayrıca olaraq MEK-də "Böyük Qayıdış" Gənclər Təşkilatı tərəfindən "Viki-mən" layihəsinə start verilib. Tərəfdaşlar sırasında "Qorqud" Vikipediya Metodik Klubu da var. Təşkilatın könüllüləri tərəfindən 50-dən çox məqalə yaradılıb və 70-dən artıq məqalə əsaslı redaktə edilib. Könüllülər bu işə töhfələr verirlər.

*Qeyd edək ki, təlimlər MEK-in təlimçiləri Nuray Tanrıverdiyeva, Səbinə Abizadə tərəfindən keçirilir. Təlimlərdə fəallıq göstərən könüllülər MEK-in baş direktoru professor Məmməd Əliyev və "Qorqud" Vikipediya Metodik Klubunun yaradılmasının təşəbbüskarı Milli Məclisin deputatı Elnur Allahverdiyev tərəfindən sertifikat və fəxri diplomla təltif olunacaqlar.*

**Aygün Tahir**

# Arvadını öldürən hakimin cəzası 3 il azaldıldı



**Bakıda arvadını öldürməkdə təqsirləndirilən sabiq məhkəmə hakimi Fəqan Əhmədovun apellyasiya şikayətinə baxılıb. APA-nın əldə etdiyi məlumata görə, Bakı Apellyasiya Məhkəməsində hakim Elmar Rəhimovun sədrliyi ilə keçirilən prosesdə qərar elan olunub.**

Qərara əsasən, Fəqan Əhmədovun həbs müddəti 10 ildən 7 ilə endirilib.

Məlumatı təqsirləndirilən şəxsin vəkili Bəylər Məmişov təsdiq edib.

Vəkil bildirib ki, məhkəmə qərar qəbul edərkən müdafiə etdiyi şəxsin hadisəni ehtiyatsızlıqdan törətməsi, üç azyaşlı övladı olması və zərərçəkmiş tərəfin də apellyasiya şikayəti verməsini yumşaldıcı hal kimi qəbul edib.

Bu əsaslarla Fəqan Əhmədov barəsində Cinayət Məcəlləsinin 62-ci maddəsi tətbiq olunaraq həbs müddəti 3 il azaldılıb.

Xatırladaq ki, Bakı şəhəri Sabunçu rayon Məhkəməsinin hakimi vəzifəsində işləyən Əhmədov Fəqan Rövşən oğlunun 30 may 2021-ci il tarixdə, saat 23 radələrində Bakı şəhəri Sabunçu rayonu, Nardaran qəsəbəsi, "Ləhiş bağları" adlanan yaşayış massivində birgə yaşadıqları evdə şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı özünə məxsus ov tüfəngindən atəş açaraq arvadı Pərvanə Əhmədovanı qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Hadisə ilə bağlı Fəqan Əhmədov barəsində Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanılıb.

*Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Fəqan Əhmədov qəsdən adam öldürməkdə təqsirli bilinərək 10 il müddətinə azadlıqdan məhrum edilib.*

*Fəqan Əhmədov Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 10 il müddətinə azadlıqdan məhrum edilmişdi.*

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1187



## Dünyanın ilk 3D körpüsü

40 yük maşını ağırlığına tab gətirə bilir

**Müasir dövrdə hətta evlər 3D printerlərdən istifadə etməklə yaradılır, lakin ”BAM İnfra” şirkəti daha da irəli gedərək körpü çap edib.**

Azərtac xarici saytlara istinadla xəbər verir ki, Niderlandın cənubundakı Gemert şəhərində 3D printerlərdən yararlanmaqla inşa edilən körpü 8 metr uzunluğunda olmaqla 800 qat dəmir-betondan ibarətdir və 40 yük maşını ağırlığına tab gətirə bilir. Lakin yalnız piyadalar və velosipedçilər üçün nəzərdə tutulub.

Körpü Eyndhoven Texnologiya Universitetinin laboratoriyasında 3 ay ərzində çap edilib və dünyanın ilk 3D körpüsü hesab olunur.

## Türkiyəyə gələn turistlərin sayı çox artıb

Ölkə turist sayına görə pandemiyadan əvvəlki rəqəmlərə çatıb



**Bu ilin ilk üç ayı ərzində Türkiyəni 6 milyon 311 min 453 turist ziyarət edib.**

Onlardan 4 milyon 902 min 624-ü əcnəbilər, 1 milyon 408 min 829-u isə xaricdə yaşayan türklərdir.

Azərtac xəbər verir ki, bu barədə Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi məlumat yayıb.

Bildirilib ki, bu dövr ərzində ölkənin turizm sektorundan əldə etdiyi gəlir 5 milyard 454 milyon 488 min ABŞ dolları təşkil edib.

Bu göstəricilərlə ölkə turist sayına görə pandemiyadan əvvəlki rəqəmlərə çatıb. Belə ki, 2022-ci ilin birinci rübündə Türkiyəyə gələn əcnəbilərin sayı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 151,02 faiz artıb. Ən yüksək artım isə 129,7 faizlə mart ayında qeydə alınıb.

*İlin ilk üç ayında Türkiyəyə ən çox ziyarətçi göndərən ölkələrin başında İran, Almaniya və Bolqarıstan gəlir.*

## Artıq ər-arvad deyillər

**Evlilikləri 4 il çəkdi**



**”Mary Gu” ləqəbi ilə tanınan rusiyalı müğənni-bloger Maria Qusarova boşanıb.**

**Axşam.az xəbər verir ki, bu barədə sənətçi sosial şəbəkədə məlumat verib. O, həyat yoldaşı Dmirti Boqayavlenskiylə fotosunu paylaşaraq ayrıldıqlarını bildirib:**

**”Dostlar, təəssüf ki, biz artıq ər-arvad deyilik. Lakin xoşbəxtlikdən biz dostluq və iş əlaqələrini saxlaya bildik. Hörmətlə ümumi işimizi davam etdirəcəyik.**

***Qeyd edək ki, cütlük 2018-ci ilin avqustunda ailə qurub.***

## Aleyna Tilki 2 milyon qazanacaq



**Türkiyəli müğənni Aleyna Tilki 4 il siması olduğu dondurma markasıyla müqaviləsini yeniləyib.**

**Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, sənətçi bu il çəkilişlərindən 2 milyon lirə məvacib qazanacaq. Reklam çarxı tezliklə izləyicilərə təqdim olunacaq.**

## Conni Depp üçün qazdığı quyuya özü düşdü



**Şiddət iddiaları ilə Hollivud ulduzu Conni Deppin karyerasına kölgə salan keçmiş həyat yoldaşı, amerikalı aktrisa Amber Heard indi özü eyni vəziyyətlə qarşı-qarşıya qalıb.**

**Axşam.az xəbər verir ki, aktrisanın ”Aqu aman 2” filmindən uzaqlaşdırılması tələb olunur. Bununla bağlı 2 milyondan çox imza toplanıb. Həmin şəxslər Amberi Deppə qarşı məişət zorakılığında ittiham edərək layihədən uzaqlaşdırmasını istəyirlər.**

***Qeyd edək ki, ikili arasında Virciniya ştatında gedən məhkəmə prosesi zamanı Depp Amber tərəfindən şiddətə məruz qaldığını sübut edib.***

## Reklamdan 3 milyon əldə etdi



**Aktrisa Aslı Enveroin sonuncu rol aldığı reklam çarxından qazandığı məbləğ diqqət çəkib.**

**Axşam.az xəbər verir ki, bank reklamında obyektiv qarşısına keçən aktrisanın bunun üçün 3 milyon lirə aldığı bildirilib.**

***Qeyd edək ki, bir müddət əvvəl iş adamı Önder Öztarhanla ailə həyatı qurmağa hazırlaşan Aslı ondan ayrılıb. O, bundan əvvəl müğənni Murad Bozla münasibətdə***



# Xoşbəxt hekayə...

## Artıq Mürsəl-Anna cütlüyü dünyaya gəlmiş oğullarına qovuşub

**İnsan ölümləri, qətllər, işgəncələrlə yadda qalan Rusiyanın Ukraynaya hərbi təcavüzü neçə-neçə ailəyə bədbəxtlik, əzab, iztirab gətirdi. Amma nə yaxşı ki, bu bədbəxtliklərin arasında insanın qəlbini isidən kiçik xoşbəxt hekayələr də gözə dəyir.**

Onlardan biri amerikalı Anna-Mariya ilə antalyalı Mürsəl arasında yaşanıb. Cütlüyün dəhşətli müharibə gedişində Ukraynada körpələri dünyaya gəlib. Xatırlayırsınızsa, daşıyıcı ananın dünyaya gətirdiyi körpənin Ukraynadakı  xəstəxanada qalması, ABŞ-da yaşayan valideynlərinsə körpələrinə qovuşa bilməməsi xəbərləri dolaşırdı. Amma onlar artıq körpələrini qucaqlarına alıblar.  “Şərq” “Milliyet.com”a istinadən xəbər verir ki, Mürsəl-Anna cütlüyü dünyaya gəlmiş oğullarına qovuşub artıq. Bu işdə onlara “Dinamo” şirkəti yardım edib. Cütlük “müharibə körpəsi”nin adını Gökhan Cohn qoyub. Ata-ana körpənin fotolarını sosial şəbəkədə bol-bol paylaşır və “2 kiloqram 400 qram ağırlığında, 46 santimetrlik kiçik adam” yazırlar.  Körpəsini qucağına alan Anna Ukraynanı görmək





istədiyini deyib: “Ukraynaya səyahət etmək, oranı görməyi çox istəyirəm”. Mürsəllə Annanın sevgi hekayəsi də çox maraqlıdır. Mürsəllə Anna sosial mediada tanış olub. Ayrı-ayrı ölkələrə və fərqli irqlərə mənsub iki nəfəri arıçılığa maraqları birləşdirib. Sonra isə hər ikisi “90 Day Fiance” realiti-şousuna qatılıb. Mürsəl Annanı Türkiyəyə dəvət edib. 4 ay sonra isə Annaya evlilik təklif edib. Annanın əvvəlki evliliyindən 3 övladının olması da sevgilərini azaltmayıb. Lakin Mürsəlin ailəsi bu evliliyə qarşı çıxıb. Bu səbəbdən cütlüyün münasibətləri bir müddət pozulub. 2020-ci ildə Mürsəl Amerikaya gedib və orada Anna ilə evlənib. Cütlük 4-cü körpənin dünyaya gəlməsi üçün daşıyıcı anadan istifadə edəcəklərini gizlətməyib və bunu sosial mediada açıq etiraf ediblər. Anna-Mariyanın instagramda 318 min, Mürsəlin 52 min izləyicisi var və onlar 4 övladıyla birgə keçən həyatları barədə tez-tez paylaşımlar edir.

**Məlahət**





# Pişiyini həkimlər öldürüb

## Türkiyə gözəli məhkəmədə iddia qaldırıb

**Türkiyə gözəli, aktrisa və aparıcı Esra Sönməzər “Bəbək” adlı pişiyinin ölümünə görə məhkəmədə iddia qaldırıb.**



“Pişiyimin müalicəsinə 1.5 milyon TL xərclədim”, deyən E.Sönməzər pişiyinin məhz müalicə müddətində öldüyünü vurğulayaraq buna səbəb olanların yaxasının buraxmayacağını deyib. “Şərq” “milliyet.com”a istinadən xəbər verir ki, cazibədar aktrisa “Kanal8”də yayımlanan “2-ci səhifə” verilişinə qatılaraq bu günlərdə keçirdiyi stresdən danışıb: “Martın 10-u pişiyimin 10 yaşı tamam oldu. Onun üçün ad günü tortu hazırlatdım. Üzərinə şam qoydum. Pişiyimin böyrəyində kista əmələ gəlmişdi. 6 ildir ki, böyrək xəstəsiydi. Daha uzun və rahat yaşasın deyə kök hüceyrə müalicəsinə başlanması məsləhət görüldü. Müalicəyə başladıq. İkinci dozada pişiyin vəziyyəti ağırlaşdı. Reanimasiyaya yerləşdirdilər. 6 gün sonra öldü.  Pişiyim bu müalicədən sonra öldü. Buna səbəb olanlar hər kimdirsə məhkəmə qarşısında cavab verəcəklər”. E.Sönməzər “Bəbəy”in İran pişiyi olduğunu deyib. Pişik Tekirdağda heyvanlar üçün ayrılmış xüsusi məzarlıqda dəfn edilib. Esra təkcə öz pişiyini deyil, bütün heyvanları sevdiyini də söyləyib: “Mən təkcə öz pişiyimi deyil, bütün canlıları sevirəm. Bu yaraşıqlı heyvan mənə çox şey öyrətdi. Acım çox böyükdür. Onun ölümündən sonra başqa bir heyvan bəsləməyə artıq nə gücüm qalıb, nə də psixologiyam buna




imkan verir”. Qeyd edək ki, Esra Sönməzər 2002-ci ildə Türkiyə gözəli seçilib. 4 il sonra Dünya Gözəllik yarışmasına qatılan Esra 4-cü yerə layiq görülüb, lakin haqsızlığa uğradığını iddia edərək tacı səhnədə yerə ataraq yarışmanı tərk edib. Heyvan sevgisi əlbəttə yaxşıdır, müsbət cəhətdir, amma daha bu qədər də yox!

**Məlahət**

## 84 il eyni şirkətdə çalışıb

100 yaşlı kişi rekorda imza atıb



**Braziliyada 100 yaşlı kişi 84 il eyni şirkətdə çalışıb.**

Azərtac xəbər verir ki, Ginnes Rekordlar Kitabının saytına görə, braziliyalı Uolter Ortman 15 yaşında işə düzəldiyi şirkətdə 84 ildən çox çalışıb.

Beş uşaqlı ailənin böyüyü olan Uolter ailəyə maddi yardım göstərmək üçün 1938-ci ilin yanvarında ”ReneauxView”də çatdırılma üzrə köməkçi olaraq işə başlayıb.

Alman dilini bilməsi və novatorluğa can atması gəncin karyera pillələri ilə yüksəlmək şansını sürətləndirib. Vaxt keçdikcə o, satıcı, sonra satış meneceri vəzifəsinə yüksəlib.

2022-ci ilin aprelində Ortmanın 100 yaşı tamam olub və o, yüzillik yubileyini təkcə qohumları və dostları ilə deyil, həm də həmkarları ilə qeyd edib.

Uolterin eyni şirkətdəki uzun müddətli karyerası Ginnesin Rekordlar Kitabı tərəfindən sertifikatlaşdırılıb.

Bu müdrik, intizamlı və çalışqan insan 2019-cu ildə əmək kitabçasındakı iş stajı 81 il 85 gün olmaqla rekord qazanmağa müvəffəq olub.

## Ömrü maksimum uzadır

Ən uyğun qidalanma rasionu hazırlanıb



**Qerontoloqlar - yaşlı insanların sağlamlığı üzrə mütəxəssislər insan ömrünün maksimal uzanması üçün ən uyğun qidalanma rasionunu hazırlayıblar.**

Bakupost.az xəbər verir ki, alimlər uzun ömürlülərlə az yaşayanların qidalanma menyusunu illərlə araşdırıblar.

Kaliforniya Universitetinin alimləri son elmi tədiqatda nəhayət ki, optimal qida menyusu təqdim ediblər.

Müxtəlif dietalar- keto dietadan tutmuş vegeterianlıq və aclığa kimi təhlil edən ekspertlər uzun ömürlülük üçün əsas şərtləri tapıblar.

Qidalanmada hər gün yüngül yox, mürəkkəb karbohidratlar çox olmalı, zülal kifayət qədər yeyilməli, daha çox ət yox, bitki əsaslı zülal seçilməli, bitki yağları yeyilməlidir. Bu yağlar enerji tələbatının 30%-ni ödəyir.

Bütün qida qəbulları sutkanın 11-12 saatı ərzində yeyilib bitməli, 3 aydan bir 5 günlük aclıq günləri keçirilməli: gündə yalnız 1000 kkalori miqdarda yeyilməlidir. Bu günlərdə heyvani qida qəbul etmək olmaz. Yalnız bir az tərəvəz, göyərti, paxla yemək olar.

5 günlük belə fasilə insulin rezisdentliyini azaldır, təzyiqi salır, şəkərin qarşısını alır, onkoloji xəstəliklərin proflaktikasıdır.

”Günbdəlik qidada çoxlu paxlalılar, tam taxıl, tərəvəz, bir az balıq, bir qədər toyuq əti, ağ ət ola bilər.

Qırmızı ət olmaz, rafinə olunmuş ağ un, ağ çəkər, ağ düyü rasiondan çıxarılmalıdır. İnsan qoz, badam, zeytun yağı, gündə 30 qr tünd şokolad yeməlidir”.